YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
23 oktyabr 2024-cü il, çərşənbə
№ 195 (6781)
Qiymәti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!



# Azərbaycan qətiyyətini bəyan edir!

## ABŞ tələsir, Ermənistanı da "tələsdirir"...

### Vaşinqtonun "yarımçıq sülh" planı nəyə xidmət edir?

Bax səh. 2

## Zəfərə 17 gün qalırdı...

Bax səh. 2

## Hədəfimiz Qərbi Azərbaycandır!



Bax səh. 4

## Qarşıdakı 4 ildə...

Bax səh. 5

### Cenevrədə mühüm konfrans...

Oktyabrın 21-də İsveçrənin Cenevrə şəhərində "Pekin+30" Regional Baxış Görüşünün açılış mərasimi baş tutub. Konfrans BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də sözügedən tədbirdə iştirak edib.

Əvvəlcə BMT Baş katibinin müavini...

Bax səh. 4

### BRICS sıralarını genişləndirir

Dünən Rusiyanın Kazan şəhərində BRICS-in 16-cı sammiti işə başlayıb. İki gün davam edəcək tədbirdə 36 ölkənin və 6 beynəlxalq təşkilatın nümayəndə heyəti iştirak edir. Təşkilata ötən il qəbul edilmiş 5 yeni ölkənin ilk dəfə iştirakı nəticəsində sammit bu il "onluq" formatında keçirilir. Həmçinin, BRICS-lə əməkdaşlıq edən Cənub və Şərq regionu ölkələrinin nümayəndələrinin Kazana gəlməsi, habelə BMT-nin Baş katibi Antonio Quterreşin tədbirdə iştirakının nəzərdə tutulması sammitin siyasi-iqtisadi əhəmiyyətini artırır. BRICS Ekspert...

Bax səh. 3

### Azad ərazilərdə azad sahibkarlıq

İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin Qarabağ Ərazi Vergilər Baş İdarəsi Şuşa şəhərində Xankəndi, Şuşa və Xocalıda fəaliyyət göstərən sahibkarlarla görüş keçirib. Mikro və kiçik sahibkarlıq subyektlərinin iştirak etdiyi görüşdə işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi məqsədilə həyata keçirilən layihələr, tətbiq edilən vergitutmanın xüsusiyyətləri, o cümlədən rezidentlərə verilən vergi və gömrük güzəşt və azadolmaları, kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi, kredit faizlərinin subsidiyalaşdırılması barədə...

Bax səh. 5

### Ukrayna NATO arzularını "basdırır"?

Qərbin verdiyi vədlərin boşa çıxdığını görən Ukrayna açıq kontekstdə öz tələblərini irəli sürməkdədir. Xüsusilə, Almaniyanın "sülh çağırışları" səsləndirməsi, ABŞ-da isə Respublikaçıların prezidentliyə namizədi Donald Trampın seçkilərdə qalib gələcəyi təqdirdə müharibəni dayandıracağı ilə bağlı fikirlər irəli sürməsi rəsmi Kiyevi düşündürməkdədir. Bu səbəbdən də, Zelenski hakimiyyəti bir tərəfdən Qərbin rəsmi müttəfiqi olmaq uğrunda mübarizə apararkən, digər tərəfdən də "nüvə silahı" yaradacağı ilə bağlı məlumatlar yayır. Amma hələ ki...

Bax səh. 7

## Fransa Ukraynaya qoşun göndərəcəkmi?



Bax səh. 7

## Tramp fəlakət bölgəsində...

### Harris musiqiçilərə "arxayındır"...



Bax səh. 6



# Ölkəmizdə nəqliyyat sisteminin səmərəli fəaliyyəti üçün tədbirlər görülür

## Prezident İlham Əliyev “MAN Truck&Bus” şirkətinin baş direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də “MAN Truck&Bus” şirkətinin baş direktoru Aleksandr Vlaskampı qəbul edib.

AZƏRTAC xəbər verir ki, COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran qonaq bunun çox önəmli bir tədbir olduğunu vurğuladı.

Aleksandr Vlaskamp COP29-da nəqliyyat sahəsinin də mühüm amil olduğunu deyərək, bu istiqamətdə Azərbaycanla əməkdaşlığın önəminə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-a hazırlıq işləri artıq son mərhələdədir. Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizdə bu işlərə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir. Dövlətimizin başçısı COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyini yüksək qiymətləndirərək bu cür tədbirin regionda birinci dəfə ölkəmizdə təşkil edilməsinin böyük önəm daşıdığını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda yaşıl və bərpaolunan enerjiyə keçid istiqamətində böyük işlərin görüldüyünü və artıq bir sıra mühüm layihələrin reallaşdırıldığını bildirdi.

Dövlətimizin başçısı ölkəmizdə nəqliyyat sisteminin də səmərəli fəaliyyəti üçün tədbirlər görüldüyünü dedi və bu baxımdan “MAN Truck&Bus” şirkəti ilə əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə ölkəmizlə “MAN Truck&Bus” şirkəti arasında potensial əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparılmasından məmnunluq ifadə edildi, şirkətin Azərbaycanda fəaliyyətinə dair fikir mübadiləsi aparıldı. Bu şirkətin istehsalı olan çox sayda texnikanın ölkəmizdə istifadə edildiyi bildirildi. Azərbaycanın artan sosial-iqtisadi potensialı və ehtiyacları nəzərə alınaraq şirkətin məhsullarının alınması ilə yanaşı, ölkəmizdə yerli istehsal imkanları da müzakirə olundu və bunun üçün vahid işçi qrupu çərçivəsində araşdırmaların həyata keçirilməsi barədə razılıq əldə edildi.

# Zəfərə 17 gün qalırdı...

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 27-ci günü**

**23.10.2020**

• Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad edib. Bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi tviter səhifəsində məlumat verib.

• Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri işğaldan azad olunub.


İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
5:29 PM · Oct 23, 2020 · Twitter Web App


İlham Əliyev
@azpresident
Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!
Translate Tweet
5:29 PM · Oct 23, 2020 · Twitter Web App

• Prezident İlham Əliyev Milli Qəhrəman, Qubadlının azadlığı uğrunda şəhid olmuş Şükür Həmidovun atası Nəriman Həmidovla telefonla danışıb.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, mühüm ərazi və yüksəkliklər azad edilib. Bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edir, fərarilik edərək mövqeləri tərk edirlər.

• Ermənistan silahlı qüvvələrinə məxsus iki pilotsuz uçuş aparatı (PUA) zərəsizləşdirilib, digər iki PUA isə xüsusi texniki vasitələrlə yerə endirilib. Ağcabədi rayonu istiqamətində uçuş keçirməyə cəhd göstərən bir taktiki pilotsuz uçuş aparatı məhv edilib.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 12:00-dək 63 mülki şəxs həlak olub, 298 nəfər xəsarət alıb, 2156 ev, 90 çoxmənzilli yaşayış binası və 398 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Müdafiə Nazirliyi Ermənistan ordusunun qüvvə və vasitələrinin darmadağın olunmasının, həmçinin yerdəyişmə etməyə hazırlaşan düşmənin canlı qüvvəsi və zirehli texnikasının məhv edilməsinin videogörüntülərini paylaşıb.

• Müdafiə Nazirliyi cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının, artilleriya bölmələrinin və komanda məntəqəsinin məhv edilməsi ilə bağlı videogörüntülər yayıb.

# Azərbaycan qətiyyətini bəyan edir!

## ABŞ tələsir, Ermənistanı da “tələsdirir”...

## Vaşinqtonun “yarımçıq sülh” planı nəyə xidmət edir?

## Razılaşdırılmış bəndlər üzrə “müqavilə” Bayden administrasiyasına nələr “qazandıracaq”?

2020-ci il Vətən müharibəsinin nətcələri siyasi sferada olduğu qədər iqtisadi müstəvidə də əsaslı reallaqlar formalaşdırdı. Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya iqtisadi regionunun, bölgəyə yaxın coğrafiyanın, hətta Körfəz ölkələrinin və Yaxın Şərqin bəzi dövlətlərinin maraqlarını özündə ehtiva edən bu yeni reallıqların memarı Azərbaycandır. Şərq ilə Qərbin, Şimal ilə Cənubun qovşağında iqtisadi perpendikulyar - kəsişən və uzlaşan münasibətlər sisteminin yaranmasına vəsilə olan ölkəmiz yeni dövrün perspektivlərinin təməlini atmaqdadır. Yeni münasibətlər sisteminin tam şəkildə oturuşması üçün isə ən vacib şərtlərdən biri sözügedən meqalayihələrin əsas keçid stansiyalarından sayılan Cənubi Qafqazda, konkret olaraq Azərbaycan ilə Ermənistan arasında sülhün yaradılmasıdır.

### Sülh müqaviləsi: ən mühüm siyasi-hüquqi istinad mənbəyi...

Sülh məsələsi qeyd olunduğu qədər vacib amildir. Çünki:

- Böyük investisiyaların, sərmayələrin, kapitalların müzakirə mövzusu olacağı bu layihələrin təhlükəsizliyi olduqca böyük önəm daşıyır;

- Bölgədə sabitliyin və stabilliyin qorunması, hərbi kataklizmlərin ehtimalının belə ortaya çıxmaması;

- Separatizm mərəzinin yayılmaması;

- İşğalçı təfəkkürdən əl çəkilməsi tam şəkildə bərqərar olmalıdır. Əks halda yarana biləcək bir boşluq bu yeni münasibətlər sisteminin oturuşmasına mane ola bilər.

İkinci bir tərəfdən, “yeni dünyanın” “yeni mərkəzi” sayılan regionumuzun geostrateji əhəmiyyəti hər kəsə bəllidir - qarşıdakı yeni çağırışların ən aparıcı ünsürü kimi meydana çıxan “yol” amilinə sahib olan Cənubi Qafqazda fərqli xarici maraqların təsir imkanlarının genişlənməsi üçün boşluq olmamalıdır. Bu və bu kimi səbəblər Ermənistan ilə Azərbaycan arasında imzalanacaq potensial sülh müqaviləsini analogiyalarından fərqləndirir. Yəni, bu sənədi yalnız və yalnız bölgədə stabillik əldə edilməsi üçün iki tərəfin əldə edəcəyi razılaşma kimi qəbul etmək olmaz - bu sənəd qarşıdakı dövrün ən vacib siyasi-hüquqi istinad mənbəyinə çevrilmə perspektivinə malikdir.

Azərbaycanın sülh üçün irəli sürdüyü şərtlər isə bəllidir - 2022-ci ildə meydana çıxan prosesdə ön planda tutulan aparıcı meyarlar müəyyənləşdirilib. Ərazi bütövlüyünün tanınması, sərhədlərin delimitasiyası və demarkasiyası, kommunikasiyaların açılması, əsassız iddiaların aradan qaldırılması kimi şərtlər gələcək dövrün sabitliyi üçün ən vacib məqamlardandır. Bu mənada, Azərbaycanın Ermənistanın



### Sülhün tələbləri: Azərbaycanın arqumentləri...

Konstitusiyasında yer alan qondarma ərazi iddiasının dəyişdirilməsi tələbi də arqumentli, əsaslı bir tələbdir. Hazırki durumda Ermənistan hələ də Azərbaycan torpaqlarına iddiasını davam etdirir - Konstitusiyasında belə bu iddianı əks etdirən işğalçı ölkənin “gələcək planlarında” yenidən bu qondarma fikrə düşməyəcəyi qarantiya olunmur. Ötən 200 illik təcrübə bunu deməyə əsas verir.

Başqa sözlə, bu gün sülhə imza atacaq Ermənistanın siyasi hakimiyyətinin dəyişikliyi fonunda İrəvanda hökumətə yiyələnəcək bir başqa qüvvənin Konstitusiyanın bu müddəasını əlində əsas tutaraq sülhü pozmayacağına kimsə təminat verə bilməz. Beləliklə, Bakının İrəvandan tələb etdiyi Konstitusiya dəyişikliyi praktik olaraq haqlıdır.

Digər tərəfdən, keçmiş “münaqişə”nin bitməsi fonunda Ermənistan ilə Azərbaycan arasında “beynəlxalq status”la tənzimlənəcək hər hansı anlaşılmazlıq qalmayıb - yəni, “Qarabağ məsələsi” beynəlxalq gündəmdən çıxıb. Münasibətlərin normallaşması prosesi isə ikili danışıqların predmetinə çevrilib. Bu halda Qarabağ məsələsində “vasitəçi” kimi fəaliyyət göstərən fəaliyyətsiz ATƏT-in Minsk qrupu da avtomatik olaraq sıradan çıxır - ləğv olunur. Ermənistan bu məsələdə Azərbaycanın mövqeyini dəstəkləməli və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı bəyanat verməlidir.

### Sülhün sabotajı: Erməni siyasətçilərinin yalanları...

Və bu halda bölgədə dayanıqlı, əbədi və beynəlxalq hüququn kodekslərini özündə əks etdirən sülh sənədi imzalana bilər. Amma bir müddətdir ki, Ermənistanın siyasi hakimiyyətinin ayrı-ayrı ranqlı təmsilçilərinin bir-birinə uyğun gəlməyən “sülh bəyanatlarının” şahidi oluruq. Kimisi “13”, kimisi “16”, kimisə isə daha fərqli rəqəmlə ifadə olunan “razılaşmaların” əldə edildiyini, sülhün imzalanmasında “heç bir problemin” olmadığını bildirir, kimisi isə onların bu fikirlərini “əsaslandırmağa” çalışır. Amma reallıq ortadadır - Ermənistan razılaşdırılmış bəndlər üzrə sənədin imzalanmasının “tərəfdarı” kimi çıxış edir. Yəni, İrəvan “kövrək və müvəqqəti” xarakter daşıya biləcək bir sənəd imzalamağa niyyətlənib. Bu, Azərbaycanın maraqlarına cavab vermir.

Aparılan əsassız “təbliğatın” isə heç bir hüquqi söykənəcəyi yoxdur. Ermənistanın həm “məntiqi”, həm də “iddiası” Azərbaycanın haqlı arqumentləri qarşısında acizdir. Azərbaycan qətiyyətlə dayanıqlı sülhün tərəfdarı kimi çıxış edir və bu istiqamətdə qəti addımlarını davam etdirəcəyini bildirir...

### Sülh “tələskənliyi”: Vaşinqtonun “giriş bileti”...

Qeyd olunduğu kimi, sülhün əldə edilməsi bu və ya digər şəkildə beynəlxalq münasibətlər sisteminə də təsir göstərəcəyi üçün proses diqqət mərkəzindədir. Ayrı-ayrı regionları təmsil edən ölkələr, hətta təşkilatlar belə məsələ ilə bağlı “münasibətlərini” ortaya qoyur. Məsələn, bir neçə gün öncə İstanbulda keçirilən “3+3” formatlı Cənubi Qafqaz Regional Əməkdaşlıq Platformasının üzvlərinin qəbul etdiyi Bəyanatda regional iqtisadi əməkdaşlığın ölkələrarası etimadın bərqərar olmasında və rifahın, sabitliyin artırılmasında oynadığı rol vurğulanıb. Bəyanatda bölgədə sülhün və sabitliyin dialoq yolu ilə təmin edilməsinin əhəmiyyəti də vurğulanıb. Təbii ki, sülh prosesi müzakirə və dialoq tələb edən bir prosesdir və burada tələsmək olmaz...

Amma maraqlı bir məqam ABŞ-ın sülh prosesinə “baxışıdır” - Vaşinqtonun “sülh üçün tələskənlik” içində olması bütün detalları ilə ortadadır. Hətta bəzi məqamlarda Ermənistanın da məhz ABŞ tərəfindən “tələsdirildiyi” fikri formalaşır. Son proseslər bunu deməyə əsas verir:

- ABŞ-ın dövlət başçısı Co Baydenin Prezident İlham Əliyevə məktubunda “cari ildə sazişi yekunlaşdırmağa dəvət”in yer alması;

- Prezident İlham Əliyevin qəbulunda olarkən ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenterin ABŞ-ın Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulaması, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu deməsi.

Görəsən Bayden administrasiyası “tarixi imkan” deyərkən nəyi nəzərdə tutur? Bəlkə, noyabrın 5-də keçiriləcək seçkilər üçündür bu tələskənlik? Hətta bəzi siyasi ekspertlər bu tələskənliyi Gürcüstandakı parlament seçkiləri ilə də əlaqələndirirlər - bu seçkilərin nəticələrinə yönələn proqnozlar heç də ABŞ-ın məmnun qalmayacağı tərzdədir. Beləliklə, ABŞ bölgədə Ermənistanı özü üçün “tutacaq” seçir, İrəvan vasitəsilə bölgəyə təmas imkanlarını yaratmağa çalışır. Yarımçıq sülh isə Vaşinqtonun bəzi məqamlarda “işinə” yarayır:

- “Separatizm” və ya “revanşizim” meyllərini “Domokl qılıncı” kimi bölgənin üzərində saxlasın;

- Müqavilədəki boşluqlardın istifadə edərək “beynəlxalq vasitəçi” və ya “tənzimləyici” qismində bölgəyə müdaxilə etsin;

- Qərb tərəfindən silahlandırılan və hərbi cəhətdən gücləndirilən Ermənistandan bütün regiona qarşı alət kimi istifadə olunsun.

Beləliklə, sənəddəki “boşluqlar” ABŞ üçün Cənubi Qafqaza “giriş bileti” sayılacaq. Bu səbəbdəndir ki, Vaşinqton var gücü ilə yenidən prosesə daxil olmağa niyyətlənib.

Azərbaycanın mövqeyi isə birmənalıdır. Prezident İlham Əliyev Baydenin xüsusi köməkçisinə Ermənistanın konstitusional əsasda Azərbaycana qarşı ərazi iddialarının sülh müqaviləsinin imzalanması yolunda başlıca maneə olduğunu və ölkəmizin prosesin irəli aparılması üçün bundan sonra da qəti addımlarını davam etdirəcəyini deyib. Beləliklə, Azərbaycan yenidən özünün qətiyyətini, birmənalı şəkildə öz yolundan dönməyəcəyini bəyan edir.

*P.İsmayılov*



## Milli Məclisin iclasında...

# 19 məsələ müzakirə edilib

**Oktyabrın 22-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyinə 19 məsələnin daxil edildiyini bildirib. Əvvəlcə iclasda millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov bildirib ki, Ermənistan sülh müqaviləsinin imzalanmasını əngəlləməkdə davam edir.**

## "Ermənistan konstitusiyası mütləq dəyişdirilməlidir"

Onun sözlərinə görə, sülh üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır: "ABŞ Prezidenti Bayden Azərbaycana tezliklə sülh sazişini imzalamağı təklif edir. Amma indiki halda bu mümkün deyil. Sülh sazişinin imzalanması üçün Ermənistanda konstitusiya dəyişiklikləri ilə bağlı referendum keçirilməlidir. İndi Ermənistan hakimiyyəti iddia edir ki, guya Ermənistan konstitusiyasında və Müstəqillik Bəyannaməsində əksini tapan məsələlər Azərbaycana qarşı ərazi iddiaları deyil. Amma xatırlatmaq istəyirəm ki, 1996-cı ildə ATƏT-in Lissabon sammiti zamanı Levon Ter-Petrosyan sammitdə Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı sənədə imza atmamışdı. O, mövqeyini belə əsaslandırmışdı ki, konstitusiyamıza əsasən "Dağlıq Qarabağ" Ermənistanın tərkibindədir. Digər bir fakt isə odur ki, Robert Koçaryan Azərbaycan SSR-də doğulub. O, Ermənistan vətəndaşı deyildi. Yalnız 1997-ci ilin martında Ermənistanın baş naziri təyin edilməsinə görə həmin ildən bu ölkədə yaşamağa başlamışdı. Koçaryan 1998-ci il prezident seçkilərində iştirak edəndə, erməni müxalifəti buna etiraz etmişdi. Çünki Ermənistan konstitusiyasına əsasən prezidentliyə namizəd ən azı 10 il bu ölkənin vətəndaşı olmalıdır. O zaman məsələyə Konstitusiya Məhkəməsi rəy verərkən Ermənistan parlamentinin "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərarına" istinad etdi və Koçaryana seçkilərdə iştirak etməyə icazə verdi".

Z.Əsgərovun fikrincə, bu faktlar Ermənistanın riyakarlığının göstəricisidir: "Onlar bu gün bir söz, sabah isə başqa söz deyirlər. Biz sülh müqaviləsini Paşinyanla yox, Ermənistan dövləti ilə bağlayırıq. Ona görə də, Ermənistan konstitusiyası mütləq dəyişdirilməlidir".

Millət vəkili Qüdrət Həsənquliyev isə bir sıra ölkələrdə olduğu kimi Azərbaycanda da seçkilərdə tədricən onlayn səsvermə sisteminə keçməyi təklif edib.

Parlamentin komitə sədri Zahid Oruc çıxışında Qərbin Gürcüstanla bağlı planlarından bəhs edib: "Gürcü xalqı gələcəyini özü müəyyənləşdirməlidir. Biz yaxşı görürük ki, Azərbaycana qarşı mübarizə həm də Gürcüstan üzərindən aparılır. Qərb dövlətləri Saakaşvilinin üzərinə qoyduqları missiyanı indi Paşinyana həvalə ediblər. Ukrayna, Suriya, Əfqanıstan hadisələri bir ibrətdir. Biz Gürcüstanda ictimai-siyasi xaos, regionda beynəlmiləl döyüşlər deyil, sabitlik və təhlükəsizlik tərəfdarıyıq".

Çıxış edən Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli bildirib ki, 200 il bundan əvvəl Cənubi Qafqaza köçürülüb gətirilən ermənilərin və onların havadarlarının xalqımıza qarşı düşmənçilik hərəkətləri nəticəsində vətəndaşlarımız bu illər ərzində saysız-hesabsız məhrumiyyətlərə, deportasiya və soyqırımlarına məruz qalıb.Torpaqlarımız zəbt olunub, insanlarımız öldürülüb, yurd-yuvasından didərgin salınıb. Yalnız 4 il bundan əvvəl - 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin bir günlük antiterror əməliyyatı nəticəsində bu bədnam siyasət durdurulub, düşmən öz layiqli cəzasını alıb. Lakin sonrakı hadisələr sübut etdi ki, düşmən bu müharibədən nəinki heç bir nəticə çıxarmayıb, xalqımıza qarşı mina terrorunu və informasiya müharibəsini bu gün də davam etdirir, sürətlə silahlanır.

Onun sözlərinə görə, bu münaqişənin əvvəlində Qərbi Azərbaycandan vəhşicəsinə qovulub çıxarılmış azərbaycanlıların geriyə - öz doğma evlərinə qayıtmağına belə razılıq vermirlər: "Belə həlledici məqamda - 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasına gəlişi və oradakı tarixi çıxışı soydaşlarımızın

## Təşəbbüs Qrupu vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışacaq

Qərbi Azərbaycana qayıdış mübarizəsində yeni səhifə açmış oldu. Prezidentin diqqət və qayğısı, ələlxüsus bu məsələni ən mötəbər beynəlxalq formatlarda qaldırması Qərbi Azərbaycan məsələsinin beynəlxalq aləmdə siyasi və insan hüquqları kontekstində ciddi şəkildə qəbul olunmasını təmin edib. Bu ümummilli məsələdə Milli Məclisin fəaliyyəti də diqqətçəkəndir. Təkcə onu xatırlatmaq kifayətdir ki, keçən il Milli Məclisdə Qərbi Azərbaycana qayıdışla bağlı 5 dəfə dinləmə keçirilib, qayıdışımızın müxtəlif aspektləri geniş müzakirə olunub. Oktyabrın 21-də isə Milli Məclisin sədri Sahibə Qafarova Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək vermək məqsədilə parlamentdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılması barədə sərəncam imzalayıb". Ə.Ələkbərli əmin edib ki, bu qrup ümummilli maraqlar naminə qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaq.

Cari məsələlərlə bağlı çıxışlardan sonra gündəlikdəki qanun layihələri müzakirə olunub. Əvvəlcə Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" qanunda (üçüncü oxunuş) dəyişikliklər edilib.

Üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Turizm haqqında" qanuna təklif olunan dəyişiklikdə isə turizm və rekreasiya zonalarının ərazisində bəzi fəaliyyət növlərinin həyata keçirilməsi (kimya sənayesi, metallurgiya, nüvə energetikası, tullantıların zərərsizləşdirilməsi və emalı müəssisələrinin fəaliyyəti) qadağan edilir. Belə ki, layihə sözügedən zonaların xüsusiyyətləri nəzərə alınmaqla "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğunlaşdırma məqsədi ilə hazırlanıb.

Müzakirələrdən sonra dəyişikliklər qəbul edilib.

## Ekosidə görə cinayət məsuliyyəti tətbiq ediləcək

Cinayət Məcəlləsinə təklif olunan dəyişiklikdə isə Azərbaycanda ekosidə görə cinayət məsuliyyəti tətbiq edilməsi nəzərdə tutulur. Qeyd olunub ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmiş layihədə "Ekosid" anlayışının əlavə edilməsi və bu cinayəti törədən şəxslərin qanun çərçivəsində məsuliyyətə cəlb olunması təklif edilir. Dəyişiklik ölkə ərazisində törədilən ekoloji cinayətlərə görə düzgün hüquqi qiymətləndirmənin aparılmasını və ekosistemin davamlı mühafizəsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsini təmin etmək məqsədi daşıyır.

Məcəlləyə əlavə edilməsi təklif edilən maddəyə əsasən, bitki və ya heyvanlar aləminin kütləvi məhv edilməsi, atmosferin, torpaq və ya su ehtiyatlarının zəhərlənməsi, yaxud ekologiyaya ziyan vuran digər hərəkətlərin qəsdən törədilməsi, bu əməllər ekoloji fəlakətə səbəb olduqda və ya ekoloji fəlakətin baş verməsi üçün real təhlükə yaratdıqda on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Müzakirələrdən sonra dəyişikliklər üçüncü oxunuşda qəbul edilib.

İclasda "Siyasi partiyalar haqqında" qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi məsələsinə də baxılıb. Belə ki, Azərbaycanda siyasi partiyaların maliyyələşdirilməsinə nəzarətlə bağlı yeni qayda müəyyən edilir. Bu, "Hesablama Palatası haqqında" qanuna təklif olunan dəyişiklikdə öz əksini tapıb. Dəyişikliyə əsasən, kənar dövlət maliyyə nəzarəti obyektlərinin siyahısı genişləndirilir. Belə ki, siyasi partiyalar kənar dövlət maliyyə nəzarətinin obyektləri sırasına daxil edilir. Müzakirələrdən sonra dəyişiklik səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

## "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsi müzakirə olundu

İclasda həmçinin "Minatəmizləmə fəaliyyəti haqqında" qanun layihəsini birinci oxunuşda müzakirə edilib. Layihə haqqında parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev məlumat verib. Bildirilib ki, qanun layihəsi 3 fəsil 14 maddədən ibarətdir. Birinci fəsildə istifadə olunan əsas anlayışların mənaları, qanunun tətbiq dairəsi müəyyən edilib. İkinci fəsildə mina əleyhinə fəaliyyət sahəsində dövlət siyasətinin istiqamətləri, minatəmizləmə fəaliyyətinin subyektləri və bu fəaliyyətə dair tələblər, təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyətinin xüsusiyyətləri, minatəmizləmə fəaliyyətində keyfiyyətə nəzarət və s. məsələlər öz əksini tapıb. Üçüncü fəsildə isə yekun müddəalar müəyyən olunub.

Qanun layihəsinə əsasən, qeyri-texniki və texniki tədqiqat zamanı toplanılmış, həmçinin dövlət orqanlarından, fiziki və ya hüquqi şəxslərdən daxil olmuş və ya mediada yayımlanmış məlumatlar əsasında səlahiyyətli qurum təhlükəli ərazilərə dair məlumatları bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə daxil edir.

Təhlükəli ərazidə minatəmizləmə fəaliyyətinə başlanması barədə icraçı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma, dövlət sərhədinin mühafizəsi aparılan təhlükəli ərazilərdə minatəmizləmə fəaliyyəti həyata keçirilərkən isə həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma 5 iş günü əvvəlcədən sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verməli və bu ərazilərdə minatəmizləmə fəaliyyəti həmin qurumla qarşılıqlı əlaqədə həyata keçirilməlidir.

Müzakirələrdən sonra sənəd qəbul olunub.

Qeyd edək ki, fasilədən sonra millət vəkilləri iclasın gündəliyində olan digər məsələləri də müzakirə ediblər.

*Nardar BAYRAMLI*

# BRICS sıralarını genişləndirir

## Kazanda yeni formatda keçirilən sammitdə təşkilatın yeni strategiyası müəyyənləşib

**Dünən Rusiyanın Kazan şəhərində BRICS-in 16-cı sammiti işə başlayıb. İki gün davam edəcək tədbirdə 36 ölkənin və 6 beynəlxalq təşkilatın nümayəndə heyəti iştirak edir. Təşkilata ötən il qəbul edilmiş 5 yeni ölkənin ilk dəfə iştirakı nəticəsində sammit bu il "onluq" formatında keçirilir. Həmçinin, BRICS-lə əməkdaşlıq edən Cənub və Şərq regionu ölkələrinin nümayəndələrinin Kazana gəlməsi, habelə BMT-nin baş katibi Antonio Quterreşin tədbirdə iştirakının nəzərdə tutulması sammitin siyasi-iqtisadi əhəmiyyətini artırır. BRICS Ekspert Şurasının rəhbəri, Ali İqtisadiyyat Məktəbinin prorektoru Viktoriya Panova bildirib ki, BRICS qlobal təşkilat kimi öz nüfuzunu daha da artırmaqdadır. Dünyanın inkişaf etmiş ölkələri bu platformada birləşərək qlobal məsələlərin birgə müzakirəsi və həllində ortaq mövqe nümayiş etdirir ki, bu da təşkilata yeni qoşulmaq istəyən ölkələrin müraciətinə səbəb olmaqdadır. Bu reallıqları nəzərə alaraq təşkilatın rəhbər şurası yeni strategiya müəyyənləşdirməyi qərara alıb.**

## BRICS - iqtisadi imkanları genişləndirir

BRICS platforması geniş iqtisadi imkanlar və fürsətlər blokudur. Təşkilatın siyasi prinsipləri qarşılıqlı hörmət və yaxın dostluq məramlarına əsaslanmaqla üzv ölkələr arasında bərabərhüquqluluq, etimad, dəstək və həmrəylik ruhunu möhkəmləndirir, iqtisadi münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldir. Nəzərə alsaq ki, BRICS qrupunun üzvləri dünyanın ən inkişaf etmiş ölkələridir, Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı kimi dünya iqtisadiyyatında xüsusi payı olan bu dövlətlər qlobal iqtisadi platformalarda təsiredici və müəyyənedici rola malikdir. Eləcə də tranzit-logistika marşrutları və dəhlizlərin müəllifidir. Bu təşkilata digər ölkələrin qoşulması və BRICS+ formatının yaranması isə iqtisadi coğrafiyanın qitələrarası inteqrasiyasını sürətləndirib.

Hazırda dünya əhalisinin 47 faizini və qlobal ÜDM-in 30 faizini özündə cəmləşdirən BRICS-də yer almış ölkələr arasında iqtisadi dövriyyələrin davamlı olaraq artması, xüsusilə də neft, sənaye, energetika, maliyyə, bank, rabitə, İKT, kənd təsərrüfatı və qeyri-neft sektorunun müxtəlif sahələrində yeni əmtəə mübadilələrinin yaranması böyük bir coğrafiyada əlavə dəyərin strukturunu da yeniləyərək böyüdür.




## BRICS+ iqtisadiyyatı 2050-ci ildə G7 iqtisadiyyatını ötəcək

Beynəlxalq Valyuta Fondunun məlumatına görə, beynəlxalq ticarətin təxminən 20 faizi, maliyyə resurslarının isə 25 trilyon dolları BRICS ölkələrində cəmləşib. Nüfuzlu "The Economist Group"un araşdırma qrupu olan "Economist Intelligence Unit"in ekspertlərinin qənaətinə görə, BRICS+ ölkələrinin iqtisadiyyatının həcmi 20 trilyon dollar, G7 ölkələrinin iqtisadiyyatının cəmi isə 40 trilyon dollar təşkil edib. Halbuki 10 il əvvəl bu fərq 3-4 dəfə idi. Proqnozlara görə, fərq getdikcə azalmağa və bərabərləşməyə doğru gedir. 2025-ci ildə BRICS+ iqtisadiyyatı 30-35 trilyon dollara, Böyük Yeddilik (G7) ölkələrinin iqtisadiyyatı isə 50 trilyon dollara çatacaq. 2030-cu ildə bu rəqəm müvafiq olaraq 45 və 60 trilyon dollar təşkil edəcək. 2040-2045-ci illərdə isə aradakı fərq demək olar ki, aradan qalxaraq bərabərləşəcək və 2045-ci ildə hər iki qrupda yer alan ölkələrin ümumi daxili məhsul (ÜDM) istehsalı 100 trilyon dollara bərabər olacaq.

Mötəbər iqtisadi araşdırma qurumlarından olan "Goldman Sachs"ın dəyərləndirmələrinə görə isə, BRICS+ ölkələrinin iqtisadiyyatının həcmi 2050-ci ildən sonra G7 iqtisadiyyatını da ötəcək. Bu təşkilatda birləşən ölkələrin iqtisadiyyatı dünyanın ən zəngin dövlətlərinin iqtisadiyyatının məcmu ÜDM-dən çox olacaq. Onu da nəzərə alsaq ki, yaxın onillikdə BRICS-ə digər ölkələrin də qoşulacağı istisna deyil, onda bu alyansın qlobal ÜDM-də payı daha da böyüyəcək. Bunun nəticəsidir ki, BRICS ümümdünya iqtisadi coğrafiyasının yeni koordinatlarını müəyyənləşdirməyə, yeni tərəfdaşları əməkdaşlığa cəlb etməyə doğru genişlənir.

## Xarici ticarətimizin 20 faizindən çoxu BRICS ölkələrinin payına düşür

Azərbaycanın BRICS ölkələri ilə tərəfdaşlıq münasibətlərini artırması ölkəmizin iqtisadi siyasətinə və dünyada yaranan yeni reallıqlara söykənir. Respublikamız BRICS-in iki üzvü ilə yaxın qonşudur, hər ikisi ilə sıx iqtisadi əməkdaşlıq proqramları var, Şimal-Cənub nəqliyyat alyansını bu ölkələrlə birgə yaradıb, dəhlizin böyük bir hissəsi ölkəmizin ərazisindən keçir, eləcə də digər regional layihələrin həyata keçirilməsi istiqamətində aramsız səylər göstərilməkdədir.

Azərbaycanın ümumi ticarət mübadiləsinin strukturunda Rusiya ilk yerlərdən birini tutur.

Eləcə də, Şərq-Qərb nəqliyyat dəhlizində əsas strateji partnyoru olan Çinlə çox yaxın əlaqələrə malikdir. Hazırda qlobal iqtisadi gücün əsas qütblərindən biri olan Çinlə Azərbaycan arasında iqtisadi-ticari, nəqliyyat və logistika üzrə dinamika daha çox templə irəliləyir. Tərəflər qarşıdakı illərə dair iqtisadi prioritetlərdə əməkdaşlığın yeni şaxələrini müəyyən edib ki, bu ticari balansın daha da böyüməsinə imkan yaradır. 2024-cü il iyulun 3-də Astanada imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də iqtisadi, siyasi, humanitar, ictimai, mədəni elm və digər sahələrdə uzunmüddətli əməkdaşlığın genişləndirilməsinə dair mühüm müddəalar yer alıb ki, bu da ümumi iqtisadi hədəflərə çatmaq üçün güclü konsepsiyadır.

BRİCS-in qurucularından və hazırda əsas iqtisadi lokomotivlərindən biri olan Çinin bu təşkilatın uzunmüddətli inkişaf strategiyasının müəyyənləşməsi və qlobal təşəbbüslərin icrasında aparıcı mövqeyini nəzərə alsaq, ölkəmizin Çinlə bu regional qurum çərçivəsində əməkdaşlıqları əlaqələndirməsi normal və məntiqlidir.

Bundan başqa, Azərbaycanın 170 xarici iqtisadi ticarət tərəfdaşının böyük bir qismi də BRİCS-də təmsil olunan ölkələrdir. Ölkəmizin 2023-cü ildə xarici ticarət dövriyyəsinin beşdə biri, təxminən 20,8 faizi BRICS üzvlərinin payına düşüb. Azərbaycan nəhəng iqtisadi potensialı olan bir platforma ilə təmasları intensivləşdirməsi və maksimum faydalanmağa çalışması tam normal və məntiqlidir.

## BRICS -Azərbaycan əlaqələri qarşılıqlı etimada, iqtisadi həmrəyliyə əsaslanır

Bütün mövcud geoiqtisadi meyilləri, qlobal iqtisadi fraqmentasiya Azərbaycanın BRICS-lə əlaqələrinin bir müstəviyə qalxmasına zəminlər yaradır. Dünya birliyinin etibarlı iqtisadi tərəfdaşlarından biri kimi Azərbaycanın bu quruma daxil olması müasir reallıqlar fonunda tam məntiqli görünə bilər.

Sözsüz ki, Azərbaycan BRICS-ə üzv olmaqla qlobal iqtisadi həmrəylik ideyasını əsas şərt hesab edir. Respublikamız qlobal təşəbbüslərlə çıxış edən, qlobal dialoqun keçirildiyi bir ölkəyə çevrilib və yeni dünyada öz nüfuzlu yerini tutmağa çalışır. Rəsmi Bakı qlobal və regional təşkilatlara hansısa siyasi maraqlar bucağından yox, iqtisadi mənafe və bərabərhüquqlu təmsilçiliyə əsaslanan tərəfdaşlıq, qarşılıqlı etimad və anlaşma şəraitində inteqrasiyanı dərinləşdirən formatlar rakursundan yanaşır. Respublikamız indiyə qədər üzv olduğu və yaxud tərəfdaş kimi cəlb edildiyi bütün institutlarda yalnız səmərəverici və faydalı əməkdaşlıq töhfələri ilə yadda qalıb, Avropa və Asiya ölkələrinə, Qoşulmama Hərəkatına üzv dövlətlərinə enerji və qeyri-enerji ixraclarında birinci prinsip kimi iqtisadi həmrəyliyi əsas götürüb, münasibətlərində heç bir zaman siyasi motiv olmayıb.

Bu baxımdan, BRICS-in əsas güc sütunları olan liderlər Azərbaycanın qlobal dünya ilə balanslaşdırılmış və çoxşaxəli siyasətinin müsbət nəticələrini, eləcə də artan resurs və tranzit imkanlarını nəzərə alaraq bu ailənin üzv olmasına müsbət yanaşır. BRICS-ə üzvlük isə Azərbaycanın xarici siyasətindəki çoxtərəfli əməkdaşlıq prinsiplərinə cavab verir, ölkəmizin iqtisadi siyasət hədəflərinə tam uyğundur.

*ELBRUS CƏFƏRLİ*

# Hədəfimiz Qərbi Azərbaycandır!

## Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb

**Ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Azərbaycanın əsas ümummilli ideyalarından biri zamanında tarixi yurd yerlərindən - indiki Ermənistan ərazisindən qovulmuş soydaşlarımızın geri dönüşünü təmin etməkdən ibarətdir. Onilliklər boyunca ağır məhrumiyyətlərə dözmüş insanların Qərbi Azərbaycana qayıdışı ləyaqətli şəkildə həyata keçirilməlidir. Artıq bu istiqamətdə inamlı addımlar atılır və biz addım-addım qayıdış hədəfimizə doğru irəliləyirik. Son olaraq Milli Məclisdə (MM) Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb. Bununla bağlı MM-in sədrə Sahibə Qafarova sərəncam imzalayıb.**

### Ermənilərin mono-etnik dövlət qurmaq siyasəti

Qərbi Azərbaycana qayıdış özündə bir neçə mühüm məqamı ehtiva edir. Burada söhbət həm beynəlxalq hüququn, həm tarixi ədalətin bərpasından, həm də insan haqlarının təmin edilməsindən gedir. Qərbi Azərbaycan icması böyük bir toplumdur. Bu icma doğma yurd yerlərini zorla qaydada tərk etmək məcburiyyətində qalan yüz minlərlə soydaşımızı və onların qanuni varislərini əhatə edir. Bu icmanın adı zamanında soydaşlarımızın yaşadıqları tarixi ərazilərimizin adından götürülüb. Yəni zamanında imperialist güc mərkəzləri Azərbaycanın Qərb bölgələrində saxta Ermənistan dövləti yaradıblar və həmin ərazilərin milli-etnik tərkibini dəyişiblər. Aborigen sakinlər olan azərbaycanlılar oradan qovulublar və həmin ərazilərdə digər ölkələrdən gətirilən ermənilər məskunlaşdırılıblar. Müxtəlif dövrlərdə çap edilmiş xəritələr və digər sənədlər Ermənistan yaradılarkən böyük saxtakarlıqlara yol verildiyini təsdiqləyir. İndiki Ermənistanın ərazisində tarix boyunca azərbaycanlılar yaşayıblar. Bəhs olunan xəritələrdə onlarla yaşayış məntəqəsinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir. Təəssüf ki, sonradan yeni bir saxtakarlıq edilərək tarixi toponimlərimiz eybəcər adlarla əvəzlənib. Erməni saxtakarlıqları yalnız toponimlərin dəyişdirilməsi ilə bitmir. Burada ermənilər özlərinə xas olan tərzdə yerin altına xaçlar basdırıblar. Sonradan təlimatlar əsasında yaradılan ekspedisiyalar "arxeoloji" qazıntılar aparıblar və necə deyərlər, evrika kəşf ediblər. Belə ki, onlar bəlli yerlərdə qazıntılar aparmaqla torpağa basdırılmış xaçları "tapıblar" və bununla da həmin ərazilərin ermənilərə aid olduğunu "sübut ediblər"...

Soydaşlarımızın tarixi yurd yerlərindən qovulması bir neçə mərhələdə reallaşdırılıb. Bu baxımdan XX yüzillik xüsusilə faciəvi olub. Belə ki, bir əsrdə 4 dəfə - 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Bu deportasiyalar və soyqırımları bizim tariximizin bir hissəsidir və gələcəkdə də belə faciələrlə üzləşməmək üçün tariximizi yaxşı öyrənməliyik. Beləliklə, bəzi ştrixlərə diqqət çəkmək yerinə düşər. Xatırlayaq: 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Prezident İlham Əliyev bunu çox doğru olaraq bağışlanmaz bir addım, xəyanət və cinayət kimi səciyyələndirib. Tarix təhrif olunmamalıdır. Baş verənləri hər kəs bilməlidir. Bəziləri AXC-nin İrəvanın ermənilərə verilməsi ilə bağlı qərarının üstündən sükutla keçməyə çalışırlar. Ancaq yox! Bəli, AXC-nin yaradılması xalqımızın tarixi nailiyyətidir və dövlətçilik yolunda atılan çox mühüm bir addımdır. Biz bütövlükdə AXC-nin fəaliyyətini yüksək dəyərləndiririk. Bununla belə, gələcək naminə tariximizdəki qara səhiifələri də unutmamalıyıq, səhvlərimizdən nəticə çıxarmalıyıq.

Zamanında bir çoxları düşünürdülər ki, ermənilər İrəvana sahibləndikdən və tarixi Azərbaycan ərazisində öz dövlətlərini qurduqdan sonra daha dayanacaqlar, bir daha ərazi iddialarından çıxış etməyəcəklər. Ancaq unutmamalıyıq ki, söhbət ermənilərdən - bütün düşüncələri və ruhları ilə "dənizdən-dənizə Ermənistan" mifinə uyan bir toplumdan gedir. Əlavə edək ki, bu toplumun iliyinə həm də "türkə nifrət" ideologiyası yeridilib, hər bir erməni körpəsinin ana laylası məhz bunu təlqin edir.

Beləliklə, ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da səbəbləri və məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə yerləşmişdilər və siyasi qərarlar verilməsinə təsir göstərmək imkanlarına malik idilər. Zəngəzurun Ermənistana verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq, bununla da eyni zamanda, Türk dünyasını parçalamaq üçün atılmış bir addım idi.

İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. Bu, keçmiş sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törətdiyi növbəti cinayəti idi.

Tarixi ərazilərimizdən soydaşlarımızın zorla çıxarılması ilə paralel şəkildə, həm də tarixi-mədəni irsimizə qəsd edilib. Belə ki, bəhs olunan ərazilərdən azərbaycanlıların didərgin salınmaları, müxtəlif adlar altında sürgünə göndərilmələri dini-mədəni abidələrimizin dağıdılması, qədim toponimlərimizin dəyişdirilib eybəcər adlarla əvəzlənmsi, hətta qəbiristanlıqların belə təhqirlərə məruz qalması ilə müşayiət olunub. Bu, əslində ermənilərin etnik təmizləmə, mono-etnik dövlət qurmaq siyasəti idi.

### Heydər Əliyev məkrli prosesləri dayandırsa da...

1970-1980-ci illərdə - böyük siyasətçi Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə məkrli proseslərin qarşısı alınıb, xalqımız Ermənistan ərazisində növbəti deportasiya və etnik təmizləməyə məruz qalmayıb. Lakin 1987-ci ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindən uzaqlaşması ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti qara günləri başlayıb. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi həyata keçirilib. Ağır işgəncələrlə, çoxlu sayda insanın məqsədli şəkildə qətlə yetirilməsi ilə müşayiət olunan sonuncu deportasiya tariximizə ən amansız deportasiya kimi düşüb. Xatırladaq ki, həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar. Verilən məlumatlara əsasən, azərbaycanlıların Ermənistan ərazisində yerləşən ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. 1988-ci ildə Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 37 ildən sonra bu gün həmin rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Bu itkilərin üzərinə soydaşlarımıza dəyən mənəvi ziyanı, onların keçirdikləri stresləri də əlavə etsək, mənzərə barədə konkret təsəvvür yaranar.

İndiki Ermənistan ərazisində soydaşlarımızın sonuncu deportasiyası 1991-ci ilin avqustinda azərbaycanlıların Nüvədi kəndindən qovulması ilə yekunlaşıb. Həmçinin XX yüzilliyin sonlarına yaxın Qarabağın və Şərqi Zəngəzurun işğalı xalqımızın növbəti faciəsi idi. Bu dəfə ermənilər havadarlarının köməyi ilə Azərbaycanın 10 min kvadratkilometrdən çox ərazisini öz nəzarətləri altına keçirməyə nail oldular. Sonuncu işğal nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Bununla belə, üzləşdiyi məhrumiyyətlər xalqımızı sındıra bilmədi. Vətən müharibəsindən sonra soydaşlarımızın Şərqi Zəngəzura Böyük Qayıdış Proqramı uğurla reallaşdırılır.

### Tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan qayıdış konsepsiyası




Qeyd etdiyimiz kimi, soydaşlarımızın tarixi yurd yerlərinə qayıdışı yeni mərhələdə Azərbaycanın əsas ümummilli ideyalarından birinə çevrilib. Soydaşlarımızın qədim yurd yerlərimizdən zorla çıxarılması kimi tarixi ədalətsizliyə, faciələrə ilk dəfə böyük siyasətçi Heydər Əliyev hüquqi-siyasi qiymət verib. Sabiq Prezident bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalayıb.

Sonrakı mərhələdə bu siyasəti eyni ardıcıllıqla Prezident İlham Əliyev davam etdirib. Soydaşlarımızın Qərbi Azərbaycana qayıdış ideyası məhz dövlətimizin başçısı tərəfindən gündəmə gətirilib. Prezident İlham Əliyev bununla bağlı dəfələrlə öz fikirlərini ifadə edib. Son 20 ildə dövlətimizin başçısının imzaladığı bir sıra sənədlər, o cümlədən Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin yubileyinin keçirilməsi, Bakıda onun abidəsinin ucaldılması soydaşlarımızın Qərbi Azərbaycana qaydışı üçün mənəvi zəmin formalaşdırır.

Azərbaycan Prezidenti sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan siyasət həyata keçirir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da bu üç prinsipə uyğun reallaşdırılır. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təmin olunması Qayıdış Konsepsiyasının əsas hədəfini təşkil edir. Qayıdış Konsepsiyası beynəlxalq hüquqa və təcrübəyə əsaslanır. Ermənistan hakimiyyəti respublikamızda Qərbi Azərbaycan icmasının tarixi torpaqlarımıza qayıdışı ilə bağlı müzakirələrin aparılmasını Azərbaycanın bu dövlətə qarşı ərazi iddiaları irəli sürməsi anlamında təqdim edir. Bu, kökündən yanlışdır və Ermənistanın siyasi rəhbərliyinin növbəti dəfə məsuliyyətdən yayınmaq, beynəlxalq ictimaiyyəti aldatmaq cəhdidir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququ zamanında doğma yurd yerlərindən zorla qovulmuş azərbaycanlılara da şamil olunmalıdır .



### Daha sistemli iş aparılmalıdır

Ermənistan dövləti azərbaycanlıların doğma yurd yerlərinə ləyaqətli şəkildə qayıdışını təmin etmək üçün öz üzərinə öhdəliklər götürməlidir. Ancaq görünən odur ki, Ermənistanın rəhbərliyi adekvat davranışlar sərgiləmir. Buna görə də soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı ilə bağlı daha sistemli fəaliyyətlər həyata keçirilməlidir. Bu yöndə Qərbi Azərbaycan İcmasının (QAİ) genişmiqyaslı fəaliyyəti təqdirə layiqdir. Qərbi Azərbaycana qayıdış ideyasının beynəlxalq gündəliyə çıxarılması mühüm hadisədir. Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərlinin verdiyi məlumata əsasən, dünyanın bir çox ölkə və qurumlarına, siyasətçilərinə onlarla məktub və müraciətlər ünvanlanıb, icmanın 220-dən çox bəyanatı qəbul edilib. Bu gün Qərbi Azərbaycan İcmasının yeddi sənədi artıq BMT-nin rəsmi sənədi kimi bütün rəsmi dillərdə və beynəlxalq qurumun üzvü olan bütün dövlətlər arasında yayılıb. QAİ-nin səmərəli fəaliyyəti nəticəsində soydaşlarımızda ləyaqətli geri dönüşə inam yaranıb, insanlarımız bu ideya ətrafında sürətlə kənd-kənd, rayon-rayon təşkilatlanıb, Qərbi Azərbaycanın 24 rayonu və 277 yaşayış məntəqəsi üzrə icmalar formalaşdırılıb, Azərbaycanın 41 rayonu üzrə nümayəndəliklər qərargahla təmin olunub. Bütün bunlar onu deməyə əsas verir ki, biz Qərbi Azərbaycana qayıdışa doğru addım-addım irəliləyirik. Artıq QAİ tərəfindən mühacirətdə olan Qərbi Azərbaycan hökumətinin yaradılması ideyası da gündəmə gətirilib.

Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun yaradılması da QAİ-nin bugünlərdə Milli Məclisin sədri Sahibə Qafarovaya ünvanladığı müraciət əsasında baş tutub. Müraciətdə deyilir ki, Qərbi Azərbaycan İcması fəal beynəlxalq fəaliyyət həyata keçirərək beynəlxalq təşkilatlar çərçivəsindəki tədbirlərdə tərəf kimi iştirak edir və Qərbi Azərbaycandakı doğma yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların Qərbi Azərbaycana qayıdış məsələsini davamlı olaraq qaldırır. Ölkəmizə qarşı qərəzli mövqedə olan dövlətlər və beynəlxalq təşkilatlar belə, bu məsələni insan hüquqları müstəvisində tutarlı arqument kimi qəbul etməli olurlar.

Məktubda Azərbaycan Respublikasının Milli Məclisində Qərbi Azərbaycana qayıdış məsələləri üzrə qurumun yaradılması təklifi irəli sürülür. Qeyd olunub ki, parlamentdə belə bir qurumun yaradılması, ilk növbədə, sözügedən məsələ ilə bağlı ölkədəki konsensusu nümayiş etdirəcək, həmçinin Qərbi Azərbaycan məsələsinin qanunvericilik aspektləri ilə yanaşı, parlament diplomatiyası xətti ilə də effektiv şəkildə davam etdirilməsinə imkan verəcək. Milli Məclisin sədri Sahibə Qafarovanın imzaladığı sərəncama əsasən, parlamentdə müvafiq Təşəbbüs Qrupunun yaradılması Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək vermək məqsədi daşıyır. Təşəbbüs Qrupu parlamentin deputat Əziz Ələkbərovun rəhbərliyi ilə yaradılıb. Sərəncamda Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun vəzifə və səlahiyyətləri öz əksini tapıb.

*Mübariz ABDULLAYEV*

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

# Cenevrədə mühüm konfrans...

## Qadın hüquqları sahəsində görülən işlərdən danışılıb

Oktyabrın 21-də İsveçrənin Cenevrə şəhərində "Pekin+30" Regional Baxış Görüşünün açılış mərasimi baş tutub. Konfrans BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə keçirilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də sözügedən tədbirdə iştirak edib.

Əvvəlcə BMT Baş katibinin müavini və Birləşmiş Millətlər Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molcean gündəlikdə duran məsələlər barədə məlumat verib. Sonra BMT Qadınlar Təşkilatının Normativ Dəstək, BMT Sistem Koordinasiyası və Proqram nəticələri üzrə icraçı direktorun müavini Nyaradzayi Qumbonzvanda və Parlamentlərarası İttifaqın Baş katibi, Beynəlxalq Gender Çempionları Qlobal Şurasının sədri Martin Çunqonq çıxış ediblər.

**Bərabər hüquqlar ölkəmiz üçün milli dəyərdir...**

Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova gender bərabərliyi ilə bağlı əsas tendensiyalar mövzusunda olan sessiyada məruzə ilə çıxış edib. B.Muradova mühüm tədbirə geniş tərkibli nümayəndə heyəti ilə qatılan Azərbaycanın son otuz ildə bu sahədə qazandığı təcrübəni bölüşməyə hazır olduğunu vurğulayıb. Komitə sədri bu barədə açılış mərasimindən əvvəl təşkil olunan "Dövlət rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması" adlı yan tədbirdə ətraflı məlumat verildiyini diqqətə çatdırıb.

**Rəqəmsal xidmətlər qadınların həyatını asanlaşdırır**

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra üzləşdiyi çağırışlara, ərazi və insan itkilərinə baxmayaraq, bərabər hüquqlar məsələsi ölkəmiz üçün milli dəyər kimi qiymətləndirilib: "Bu öhdəlik bizi Pekin Fəaliyyət Platforması ilə bağlı əhəmiyyətli irəliləyiş əldə etməyə vadar etdi. Ölkədə, xüsusən də işğaldan azad edilmiş ərazilərdə, o cümlədən "ağıllı" şəhər və kəndlərdə müasir infrastrukturun inkişafı, rəqəmsal xidmətlər qadınların həyatını asanlaşdırır".

**Mühüm sənədlər üzərində iş gedir...**







Məlumat verilib ki, Azərbaycanda insan hüquqlarının müdafiəsi ilə bağlı 10 qanun, 12 normativ akt, 4 fəaliyyət planı, 1 strategiya qəbul edilərək həyata keçirib. CEDAW tövsiyələrinə uyğun olaraq, gender bərabərliyi ilə bağlı problemləri həll etmək üçün yeni hüquqi tədbirlər reallaşdırılıb. Hazırda ailə qanunvericiliyinin təkmilləşdirilməsi, Məişət Zorakılığına qarşı ikinci Milli Fəaliyyət Planının və Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının layihəsinin hazırlanması üzərində iş aparılır.

B.Muradova qadınlar üçün iş məhdudiyyətlərinin azaldıldığını, ödənişli atalıq məzuniyyəti haqqında yeni qanunun hazırlandığını vurğulayıb. O, bildirib ki, gender bərabərliyini təşviq etmək, qadınların səlahiyyətlərini artırmaq, məişət zorakılığına qarşı mübarizə aparmaq, həm mərkəzi, həm də yerli səviyyədə monitorinq qrupları kimi institusional mexanizmləri gücləndirmək üçün qanunvericiliyə dəyişikliklər edilib.

**Azərbaycanda hakimlərin 21 faizini qadınlar təşkil edir**

Komitə sədri qeyd edib ki, Birinci Pekin Konfransından ötən müddətdə Azərbaycan öhdəliklərini həyata keçirmək və qadınlarımızın səlahiyyətlərini gücləndirməyə kömək etmək üçün daim çalışıb. Belə ki, beş dəfə Azərbaycan Qadınlarının Konqresi və bir dəfə Forumu keçirilib. İctimai-siyasi həyatda da mühüm irəliləyişlər əldə olunub. Son parlament seçkilərində qadınlar 20,8 faiz yer tutmuşdu. Hazırda Azərbaycanda qadınlar hakimlərin 21 faizini, bələdiyyə üzvlərinin isə 39 faizini təşkil edir.

Dayanıqlı İnkişaf Məqsədləri kontekstində Dayanıqlı İnkişaf üzrə Milli Koordinasiya Şurası "2030 Gündəliyi" öhdəliklərinə nəzarət edir. Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin icrasına dair dördüncü Könüllü Milli Hesabatı təqdim edən regionda ilk və dünyanın beş ölkəsindən biridir.

**"Gender günü" təşkil olunacaq...**

Noyabrda Azərbaycanın COP29-a ev sahibliyi edəcəyini xatırladan B.Muradova konfrans çərçivəsində "Gender Günü"nün təşkil olunacağını vurğulayıb. Ölkəmizdə qadınların təhsil imkanlarının genişləndirilməsi məsələsinə də toxunan Komitə sədri bildirib: "Həssas qruplar xüsusi təqaüd proqramları vasitəsilə dəstəklənir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Ailə Biznesinə Asan Dəstək (ABAD), Azərbaycan Kənd Qadınları və Qadın Sahibkarlıq assosiasiyaları, o cümlədən Qadın Resurs mərkəzləri qadınların imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Buna görə də biz Pekin Bəyannaməsinə sadiq qalırıq və qadınların bütün sahələrdə bərabər iştirakına töhfə verməyə davam edəcəyik".

*Yeganə BAYRAMOVA*

# Azad ərazilərdə azad sahibkarlıq

## Bölgədə çalışan biznes üzvləri güzəştli kreditlərlə təmin olunur

İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin Qarabağ Ərazi Vergilər Baş İdarəsi Şuşa şəhərində Xankəndi, Şuşa və Xocalıda fəaliyyət göstərən sahibkarlarla görüş keçirib. Mikro və kiçik sahibkarlıq subyektlərinin iştirak etdiyi görüşdə işğaldan azad olunmuş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi məqsədilə həyata keçirilən layihələr, tətbiq edilən vergitutmanın xüsusiyyətləri, o cümlədən rezidentlərə verilən vergi və gömrük güzəşt və azadolmaları, kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması barədə məlumat verilib.

Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin üzvü Emin Şirinov bildirib ki, 2024-cü ilin 9 ayında 4116 sahibkarlıq subyektinin investisiya layihəsinə 167,6 milyon manat güzəştli kredit ayrılıb ki, onlardan bir hissəsi azad edilmiş ərazilərdə fəaliyyət göstərən biznes icmasına verilib. Belə ki, işğaldan azad edilmiş ərazilərdə çalışan 10 sahibkarlıq subyektinin layihələri 23,8 milyon manat güzəştli kreditlərlə dəstəklənib ki, bu da güzəştli kredit portfelinin təxminən 15 faizi deməkdir. Bundan başqa, digər istiqamət sahibkarların işğaldan azad olunmuş ərazilərdə reallaşdıracaqları investisiya layihələrinə cəlb edəcəkləri kommersiya kreditləri üzrə zəmanətin verilməsidir. Bu çərçivəyə əsasən, İpoteka və Kredit Zəmanəti Fondu tərəfindən zəmanət subsidiya mexanizmi çərçivəsində azad ərazilərdə kredit tələbi 17,7 milyon manat olan 8 layihəyə 14 milyon manat məbləğində dövlət zəmanəti verilib.

### İqtisadi stimullar və vergi təşviqləri biznesin sayını artırıb

Qeyd edək ki, 2023-cü ilin əvvəlindən etibarən 10 il müddətinə müvafiq ərazilərdə yaradılan və fəaliyyət göstərən müəssisələrə və sahibkarlara bir sıra vergi və fiskal güzəştlər tətbiq edilib, onlar gəlir, mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən, istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalının 10 il müddətində ƏDV-dən azad ediliblər. Habelə işğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının dividend gəlirləri 10 il müddətində vergidən azad olunub. Qeyri-dövlət və qeyri-neft sahələrində fəaliyyət göstərən sahibkarların məcburi dövlət sosial sığorta haqqı dövlət büdcəsi vəsaiti hesabına subsidiyalaşdırılır. Bütün bu güzəşt və stimullar sahibkarların istehsal xərclərinin azalmasına, yığım imkanlarının genişlənməsinə və təkrar investisiya üçün əlverişli maliyyə mənbələrinin yaradılmasına imkan verir, həmçinin istehsal olunan mal və xidmətlərin maya dəyərinin optimallaşdırılması yolu ilə rəqabət qabiliyyətinin dəstəklənməsini təmin edir. Azad ərazilərdə biznes üçün əlverişli imkanların yaradılmasında əsas məqsəd bu bölgədə çalışmaq istəyən sahibkarların sayını artırmaqdadır.

Bu motivasiyalar nəticəsində azad ərazilərdə fəaliyyət göstərən sahibkarların sayı artaraq 2024-cü ilin ötən 8 ayı ərzində 1700-ü ötüb. Hüquqi şəxslərin və yeni müəssisə və təşkilatların sayı isə 170-ə çatıb.

### Sənaye və aqroparklarda yeni istehsal sahələri yaradılır

Sahibkarlığın İnkişafı Fondu və İqtisadi Zonaların İnkişafı Agentliyi bu bölgədə çalışan sənaye parklarının rezidentləri ilə də davamlı tədbirlər keçirərək onların maliyyə təminatı ilə bağlı məsələləri öyrənir, dəstək tədbirləri istiqamətində araşdırmalar aparılır. Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası"nda keçirilən görüşlərdə sahibkarların güzəştli kredit, zəmanət və subsidiya mexanizmləri ilə bağlı təklifləri dinlənilib və onların maliyyə qurumlarının vəsaitlərinə çıxışlarının asanlaşdırılması üçün əlavə addımların atılacağı bildirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya imkanlarının və biznes perspektivlərinin qiymətləndirilməsi, dövlət-özəl sektor əməkdaşlığı modeli üzrə layihələrin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.

Hazırda azad ərazilərdə kiçik və orta biznes təsərrüfatlarının yaradılması ilə yanaşı, iri müəssisələrin yaradılması işləri də sürətlənməkdədir. İki il əvvəl fəaliyyətə başlamış Zəngilandakı "Dost Aqropark" layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Bu ərazidə ötən il kənd təsərrüfatı məhsullarının istehsalı ümidverici göstəricilərlə yadda qalıb. Eləcə də Qubadlı və Zəngilanda taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri, heyvandarlıq təsərrüfatları, həmçinin, Kəlbəcər və Laçında arıçılıq təsərrüfatları yaradılıb. Türkiyə, İsrail, Rusiya və digər ölkələrə məxsus sahibkarlar bir neçə investisiya layihəsi icra etməkdədir.

Bugünlərdə Cəbrayıl və Ağdam rayonunda bir neçə aqrar-sənaye müəssisisənin təməli qoyulub. Onlardan biri, Cəbrayıldakı "Hicaz quşçuluq" müəssisəsi böyük bir investisiya sahəsi olmaqla 150 daimi iş yerinin yaradılmasını nəzərdə tutur. Yaxud həmin rayonda təməli qoyulan "Azərsun Holdinq" MMC-yə məxsus alkoqolsuz içki məhsulları istehsalı kompleksi bu bölgədə yeyinti sənayesinin inkişafında mühüm rol oynayacaq, gələcəkdə 300-ə yaxın sakinin işlə təmin edilməsinə səbəb olacaq.




Hazırda, Cəbrayıldakı 200 hektarlıq sahədə yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında hazırda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması işləri sürətlə davam etdirilir ki, həmin müəssislərdə 1000 nəfərin işlə təmin olunması mümkünləşəcək.

Bölgənin sənaye arxitekturasının əsas sütunlarından biri olan Ağdam Sənaye Parkında biznesin sayı durmadan artır. Bu sənaye zonasına ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə, 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bugünədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb. Sentyabrın 19-da Ağdam Sənaye Parkında "BAFCO İnvest" "Eel Electric", "Rail Trans Service", "Mister Decor" və "Metkons" MMC-lərin açılışı ilə sənaye zonasında yeni imkanlar da böyüyüb və bu sənaye zonasında əlavə olaraq 400-dən çox iş yeri yaradılacaq.

### Xarici sərmayəçilərin təşəbbüskarlığı da yüksəlir

Azad ərazilərdə özəl təşəbbüsləri hərtərəfli təşviq etmək və dövlət-özəl sektor tərəfdaşlığını inkişaf etdirməklə regiona investisiya qoyuluşunun artırılması istiqamətində də əhəmiyyətli dinamika nəzərə çarpmaqdadır. Sahibkarların maliyyə-kredit təminatı ilə bağlı tədbirlər çərçivəsində bir neçə sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə güzəştli kredit verilib, 12 kənd təsərrüfatı məhsullarının istehsalçısı dövlət büdcəsinin vəsaiti hesabına əkin subsidiyası ilə təmin olunub. Bölgədə biznes qurmaq istəyən sahibkarların maliyyə imkanlarına çıxışını asanlaşdırmaq üçün banklarla birgə mexanizm hazırlanır, eləcə də sahibkarların istehsal etdikləri məhsulun birbaşa dövlətin dəstəyi ilə alışının təşkili üzərində iş aparılır.

*ELBRUS*

# Qarşıdakı 4 ildə...

## İqtisadi artım böyüyəcək, sərmayə qoyuluşları yüksələcək

Maliyyə Nazirliyi 2025-2028-ci illər üzrə Ortamüddətli Xərclər Çərçivəsi sənədinin əsas istiqamətlərini açıqlayıb. Sənəd ölkənin iqtisadi və sosial inkişaf konsepsiyası və ortamüddətli proqnoz göstəriciləri əsasında hazırlanıb. Çərçivə sənədində ölkəmizin qarşıdakı 4 ildə iqtisadi inkişafının təmin olunması üçün gəlirlər və xərclər üzrə əsas hədəf prioritetləri öz əksini tapıb.

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnozlara əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcək. 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata, o cümlədən qeyri-neft ÜDM-in həcminin 117,2 milyard manata qədər artacağı gözlənilir. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilir. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

Hökumətin nikbin makroiqtisadi ssenarisinə əsasən, ölkəmizin qarşıdakı 4 il ərzində iqtisadi inkişafının əsas drayverləri qeyri-neft sektoru üzrə yığım mənbələrinin təşviqi, "kölgə iqtisadiyyatı"nın səviyyəsinin azaldılması və müxtəlif sektorlarda çalışan fiziki şəxslərin gəlir vergisi üzrə verilmiş azadolmanın müddətinin 2025-ci ilin sonunda bitməsi və bunun sayəsində yeni fiskal gəlir kanalının yaranması, habelə iqtisadiyyatın özəl və dövlət sektorunda qeyri-rəsmi məşğulluğun qarşısının alınması və gəlirlərin leqallaşdırılması nəticəsində qeyri-neft yığım mənbələrinin genişlənməsi olacaq. Qeyri-neft fiskal yığımları stimullaşdırmaq üçün real sektorun və sahibkarlığın maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, rəqabət qabiliyyətinin gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi, eləcə də vergi-gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi üçün müvafiq addımlar atılacaq.

Bu dövrdə neft və qazın optimist proqnozlara söykənməsi neft gəlirləri üzrə büdcənin fiskal təminatını da dayanıqlı şəkildə qoruyub saxlayacaq. Belə ki, baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2025-ci il üçün 70 dollar və 2026-2028-ci illər üçün 65 dollar civarında, təbii qazın 1000 kubmetrinin orta illik ixrac qiyməti 2025-ci il üzrə 242 dollar, 2026-2028-ci illər üzrə isə 236 dollar olaraq fərz edilib ki, bu da neft və qaz sektorunda gözlənilən daxilolma həcmlərini tam təmin etməyə imkan verir.

Ümumilikdə, ortamüddətli dövrdə gəlir mənbələrinin dayanıqlılığı əhalinin gəlirlərinin artmasına da impuls verəcək. Bu dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir. Əhalinin gəlirlərinin sabitliyində mühüm rol oynayan amillərdən biri - monetar vəziyyət də sabit qalacaq, manatın dollara qarşı məzənnəsi 1,70 intervalında ehtimal olunur.

### 2025-2028-ci illərə dair Ortamüddətli Xərclər Çərçivəsinin əsas istiqamətləri

### Xarici borcla bağlı əsas hədəflər...

Neft-qaz gəlirləri ilə düşünülmüş təmkinli siyasət həm büdcədə neft transfertlərinin həcminin tədricən azalmasına gətirib çıxaracaq, həm də büdcənin qeyri-neft kəsirinin azalmasını təşviq edəcək. Belə ki, yaxın 4 ildə Dövlət Neft Fondunun dövlət büdcəsinə illik transfertlərin yuxarı hədləri azalmaqla əsas fiskal sütun kimi qeyri-neft sektorunun dayanıqlılığı güclənəcək. Bu siyasət tədbirlər sayəsində büdcə kəsirinin ÜDM-də payı da aşağı düşmüş olacaq. 2025-2028-ci illərdə büdcə siyasətinin əsas hədəfləri sırasında qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi yuxarı həddinin hər il deyil, ortamüddətli dövrün sonuna müəyyən edilməsi nəzərdə tutulur ki, kəsirin yuxarı həddi 2028-ci ilə qədər 15,5 faiz səviyyəsində saxlanılmaqla qaneedici səviyyə hesab olunur.

Bu siyasət, eyni zamanda dövlət borcunun da azalması çərçivəsi üzrə prioritetlərə də müsbət təsir göstərəcək. Yaxın 4 il üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin yuxarı həddinin 30 faizdən aşağı səviyyədə saxlanılması, bu zaman xarici dövlət borcunun məbləğinin 10 milyard dolları üstələməməsi kimi hədəflər müəyyən edilib. Qeyd edək ki, 2024-cü il birinci yarısında dövlət borcunun ÜDM-ə nisbəti 21,2 faiz təşkil edib ki, bu da büdcə qaydasının ortamüddətli dövr üzrə dövlət borcunun ÜDM-ə nisbət göstəricisinin hədəflənən yuxarı hədd göstəricisindən 8,8 faiz bənd azdır.




### Həm neft, həm də qeyri-neft sektoruna investisiyalar artacaq...

Hökumətin proqnozlarına görə, qarşıdakı 4 ildə sərmayə qoyuluşlarının həcmi də davamlı artacaq. 2025-ci ildə əsas kapitala olan investisiyalarda 3 faiz, ortamüddətli dövrdə isə orta illik 3 faiz artım olacağı, 2025-ci ildən 2027-ci ilin sonuna doğru neft-qaz sektoruna yönəldilən kapital qoyuluşlarında artım proqnozlaşdırılır. Əsas kapitala investisiyaların artmasına bu sahədə stimullaşdırıcı vergi siyasətinin tətbiqi, bank-maliyyə sektorunun vasitəçiliyinin gücləndirilməsi, strategiya üzrə müəyyən edilmiş hədəflər, dövlət büdcəsinin əsaslı xərcləri üzrə proqnozları, işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı quruculuq işləri və neft-qaz sektorunda fəaliyyət göstərən təşkilatların öhdəlikləri öz mühüm təsirlərini göstərəcək.

Qeyd edək ki, 2024-cü ilin yanvar-sentyabr aylarında investisiya fəallığının yüksəlməsi sayəsində əsas kapitala 12,7 milyard manatdan çox vəsait yatırılıb. Sərmayələrin 10,5 milyard manatını daxili investisiyalar təşkil edib, xarici sərmayələrin həcmi isə 2,2 milyard manata bərabər olub. Əsas kapitala yönəldilmiş xarici investisiyaların əsas hissəsi qeyri-neft bölmələrində müxtəlif layihələri, o cümlədən, "yaşıl enerji" sektorunu əhatə edir. Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Bu isə növbəti illərdə xarici investorların əlavə sərmayə qoyuluşlarını təşviq edəcək.

### İnflyasiya yaxın 4 ildə 3,8 faiz səviyyəsində qalacaq

Büdcə siyasəti qarşısında duran əsas vəzifələrdən biri də anti-inflyasiya tədbirlərinin dəstəklənməsi, habelə inflyasiyanın əhalinin alıcılıq qabiliyyətinə və real gəlirlərinə mənfi təsirlərinin azaldılması, vətəndaşların rifahının təmin olunması və həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsidir. Anti-inflyasiya tədbirləri strateji məqsəd kimi müəyyən edildiyindən bu kurs 2025-2028-ci illərdə də əsas hədəf prioriteti kimi diqqətdə saxlanılacaq. İqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar yenəd də işə koordinasiya ediləcək. Bu çərçivəyə əsasən, zəruri xərc istiqamətləri üzrə artımların inflyasiyaya təkan verməyən səviyyədə həyata keçirilməsi və pul bazasının izafi artımına gətirib çıxarmaması üçün Mərkəzi Bank tərəfindən yürüdülən monetar siyasət davam etdiriləcək.

Beynəlxalq təşkilatların əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi, eləcə də anti-inflyasiya tədbirləri əsas götürülərək baza ssenaridə 2025-ci ildə isə 4,6 faiz proqnozlaşdırılan orta illik inflyasiyanın tədricən azalaraq 2028-ci ildə 3,8 faiz olacağı fərz edilir.

Qeyd edək ki, beynəlxalq iqtisadi institutların proqnozlarında da ölkəmizdə inflyasiyanın sabit qalacağı fərz edilir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5 faiz, 2025-ci ildə 3,9 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə qiymət indeksi cari ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarında isə inflyasiyanın 2024-cü ildə 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz əks olunub.

*ELBRUS CƏFƏRLİ*

# Yelisey Sarayının müstəmləkəçilik siyasəti beynəlxalq səviyyədə ifşa olunur

## Bakı Təşəbbüs Qrupu BMT-nin Cenevrə ofisində silsilə tədbirlər keçirir

**Öz siyasətində daim beynəlxalq hüquq normalarından və ədalət mövqeyindən çıxış edən Azərbaycanın təklifləri ilə yaradılan Bakı Təşəbbüs Qrupu (BTQ) Fransanın Afrikada və dənizaşırı ərazilərdə davam etdirdiyi müstəmləkəçilik siyasətinin ifşasını qətiyyətlə davam etdirir. Qurum təmsilçiləri bugünlərdə BMT-nin Cenevrə ofisində İnsan Hüquqları Komitəsinin davam edən (İHK) 142-ci sessiyası çərçivəsində mühüm tədbirlərə qatılıblar və Fransanın müstəmləkəçilik siyasətinin ağır nəticələrini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıblar. Sessiyada Fransanın milli hesabatından bir gün öncə, oktyabrın 21-də İnsan Hüquqları Komitəsində maraqlı tərəflər üçün iclas keçirilib. İclasda Bakı Təşəbbüs Qrupu və təşkilatın xətti ilə Yeni Kaledoniya və Fransız Polineziyasının nümayəndə heyəti iştirak edib. BTQ-nin icraçı direktoru Abbas Abbasov komitədə bəyanat səsləndirib. Oktyabrın 25-də isə BTQ Fransanın dənizaşırı ərazilərində baş verən insan hüquqları pozuntularını əks etdirən "Fransanın Dənizaşırı Ərazilərində İnsan Hüquqlarının Pozulması Haqqında Hesabat"ın təqdimatına həsr olunmuş mətbuat konfransı keçirəcək.**

### BTQ-nin alternativ hesabatı

Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Ancaq Fransa həmin ölkələrə yaxşı heç nə gətirməyib, əvəzində müstəmləkələrində utancverici izlər qoyub, burada hərbi cinayətlər törədib, yüz minlərlə insanın ölümünə rəvac verib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır.

Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, sənədə qoşulmuş ölkələr BMT Nizamnaməsinə uyğun olaraq faktiki müstəmləkə altında saxladıqları ərazilərdə yaşayan xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsini təşviq etməli və bu hüquqa hörmətlə yanaşmalıdırlar. Ancaq Fransanın müstəmləkə ərazilərində davam etdirdiyi siyasət bu sənədin müddəaları ilə kəskin ziddiyyət təşkil edir. Tam qətiyyətlə deyə bilərik ki, hazırda iyrənc kolonializm və neokolonializm siyasəti yürüdən dövlətlərin başında məhz Fransa dayanır. Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu BMT-nin İnsan Hüquqları Komitəsinə Fransanın kolonial siyasətini ifşa edən alternativ hesabat təqdim edib. Həmin hesabat BMT-nin İnsan Hüquqları Komitəsinin rəsmi saytında dərc edilib.

BTQ-nin icraçı direktoru Abbas Abbasov yaydığı bəyanatda Yeni Kaledoniyada Fransa tərəfindən keçirilmiş qeyri-qanuni referendumu qınayıb, Fransanın burada zorla seçki məcəlləsinə konstitusional dəyişiklik etmək istəyini pisləyib. Kanak xalqının etirazına səbəb olmuş Fransanın bu addımı nəticəsində Yeni Kaledoniyada 10-dan çox adamın həlak olduğunu, 400-ə yaxın insanın yaralandığını vurğulayıb.

Bundan əlavə, A.Abbasov Fransanın Polineziyada keçirtdiyi nüvə sınaqlarına görə yerli xalqın sağlamlığına ciddi ziyan dəydiyini diqqətə çatdırıb. Fransız Polineziyası xalqının müstəqillik arzusunda olduğu, Fransanın buna müqavimətinin BMT-nin 67/265 nömrəli qətnaməsinin icrasına maneçilik törətdiyi bildirilib.

A.Abbasov Fransanın əsarəti altında olan digər ərazilərdəki tarixi ədalətsizlik, iqtisadi çətinliklər və suverenliyin çatışmazlığı barədə də söhbət açıb. O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri və hazırda "Troyka" üzvü kimi kolonializmə qarşı mübarizə sahəsində beynəlxalq platformalarda apardığı iş haqqında ətraflı məlumat verib.

A.Abbasov Yeni Kaledoniyada BMT-nin nəzarəti altında yeni referendumun keçirilməsinə, Fransanın bu ölkədən hərbi qüvvələrini çıxarmağa və BMT-nin Xüsusi Dekolonizasiya Komitəsi tərəfindən buradakı vəziyyəti qiymətləndirməyə çağırış edib.

O, eyni zamanda, nüvə sınaqlarına görə Fransız Polineziyasına Fransa tərəfindən kompensasiyanın ödənilməsini tələb edib, Yeni Kaledoniya və Fransız Polineziyası xalqlarının öz müqəddəratını təyinetmə hüququnu tanımağa çağırış edib. BMT-nin bu prosesə nəzarət etməsinin labüdlüyünü vurğulayıb.

Bakı Təşəbbüs Qrupunun oktyabrın 25-də keçirəcəyi mətbuat konfransı Fransanın bugünədək əsarət altında saxladığı müstəmləkə ərazilərindəki ciddi insan hüquqları pozuntularını dünya ictimaiyyətinə çatdırmaq və beynəlxalq dəstək qazanmaq məqsədi daşıyır. Fransanın bu ərazilərdəki müstəmləkə siyasətinin nəticəsi olaraq yaranan ciddi ekoloji fəlakətlər, mədəni irsin məhv edilməsi, yerli dillərin yoxa çıxması və təhsil hüquqlarının pozulması kimi məsələlər konfransın əsas müzakirə mövzuları olacaq.

Təqdim ediləcək hesabat Fransız Polineziyasında nüvə sınaqlarını, Yeni Kaledoniyada nikel istismarını, Martinika və Qvadelupada pestisid qalmaqalı ilə bağlı ətraf mühit hüquqlarının pozulması, ekoterroru və Mayotun Fransa tərəfindən işğalının bir sıra nəticələrini əhatə edir. Eyni zamanda, sağlamlıq hüquqlarından məhrum edilmə, təhsil sahəsində ayrı-seçkilik, məlumat əldə etmək, seçki hüquqlarının pozulması, mədəniyyət və din azadlığı ilə bağlı pozuntular da müzakirə olunur. Üstəlik, Fransanın müstəmləkə altında saxladığı ərazilər haqqında BMT-yə məlumat göndərməsini dayandırması insan haqları pozuntuları ilə bağlı beynəlxalq müzakirələrin də dayanmasına səbəb olub.

Tədbirin əsas iştirakçıları şəxsən bu ərazilərdə baş verən insan haqları pozuntularının şahidi və qurbanlarıdır. Mətbuat konfransında bu şəxslər öz şəxsi hekayələrini və icmalarının qarşılaşdığı çətinlikləri paylaşacaq, Fransanın mədəni və siyasi hegemoniyasına qarşı mübarizələrindən danışacaqlar.

### Mətbuat konfransında şahidlər danışacaqlar



Hesabatda hekayələri işıqlandırılan şəxslər arasında Erik Simoni və "Nazione", eyni zamanda, Martinika Ədalət Kollektivinin Prezidenti Herve Pintonun 20 ay həbs cəzasına məhkum edilməsi, Yeni Kaledoniya rəsmi şəxslərinin "Fransa bizi siyasi məhbus kimi saxlayır" deməsi, təcavüz iddialarının təsdiqi və digər məsələlər yer alır.

Tədbir BTQ tərəfindən Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra olunan "Neokolonializm və kolonializmlə mübarizədə qlobal təşəbbüslərin gücləndirilməsi" layihəsi çərçivəsində təşkil ediləcək.

*Mübariz FEYİZLİ*

# Tramp fəlakət bölgəsində...

## Kamala Harris musiqiçilərə "arxayındır"...

## ABŞ-dakı seçki marafonu finişə yaxınlaşarkən...

**ABŞ-da noyabrın 5-də baş tutacaq prezident seçkiləri ilə bağlı təşviqat kampaniyası yekunlaşmaq üzrədir. Prezidentliyə namizədlikləri irəli sürülmüş Donald Tramp və Kamala Harris aktiv kampaniyalarını davam etdirirlər. Harris keçmiş Tramp tərəfdarlarını və GOP-dan (Böyük Köhnə Partiya - Respublikaçılar Partiyasının "ləqəbi") narazı qalanları qazanmağa çalışır. Vitse-prezident Pensilvaniya və Şimali Karolinada tədbirlər keçirməklə Trampın dəstəkləndiyi bu ştatlarda üstünlük qazanmaq istəyir. Tramp isə bunun əksinə, fırtınadan daha çox zərər çəkmiş ştatları özünün əsas "kampaniya hədəfi" elan edib - eks-prezident həmin ərazilərə baş çəkərək daha ciddi bir "ton" nümayiş etdirir, hökumətin təbii fəlakətlərə qarşı ləng reaksiyasını tənqid edir. Tramp xüsusilə Cənub ştatlarında daha çox seçici qazanmağa çalışır, Harris isə "mavi divar" adlanan ştatlarda (Pensilvaniya və Miçiqan) öz mövqeyini gücləndirmək istəyir. Ən diqqətçəkən məqamlardan biri Harrisin seçki kampaniyasında populyar musiqiçilərin dəstəyindən yararlanmaq istəyi olub. Lizzo və Raymond Uşer kimi məşhur musiqiçilər seçki kampaniyası mitinqlərində iştirak edərək seçiciləri hazırkı vitse-prezidentə səs verməyə çağırıblar.**

### İlon Maskdan xəbərdarlıq...

Adı Trampın "nazirlər kabineti"ndə hallanan İlon Mask seçki ilə bağlı bəzi iqtisadi çağırışlar edib. O bildirib ki, Harrisin prezident seçiləcəyi təqdirdə ABŞ innovasiyalar baxımından geri qalacaq. O, xüsusilə kosmos araşdırmaları və Mars missiyası üçün Trampın dəstəklənməsini vacib hesab edib. Eyni zamanda, Mask hazırkı hakimiyyətin iqtisadi-sosial siyasətini də hədəfə alıb. Milyarder vurğulayıb ki, əgər dövlət xərclərini kökündən azaltmasa, ABŞ faktiki iflas olacaq. X-dakı mesajında o, ölkənin iqtisadi vəziyyətinin böyük borc altına girən adama bənzədiyini deyib. "Dövlət xərcləri kəskin azaldılmasa, ABŞ-ı iflas gözləyir"-deyə Mask vurğulayıb. Amerikalı milyarderin sözlərinə görə, dövlət borcunun üzərinə gələn faizlər sürətlə bütün vergi gəlirlərini "yeyir" və ölkənin kritik ehtiyaclarını ödəmək üçün heç bir vəsait qoymur.

### Aİ Trampdan çəkinir...

Seçkiöncəsi ABŞ nəşrləri daha çox post-Bayden dövrünü təhlil edir. Məsələn, "Politico" yazır ki, Tramp qalib gəlsə və ticarət müharibəsinə başlasa, ABŞ bu dəfə Avropadan "sərt cavab" alacaq. Nəşrə açıqlamalarında siyasi ekspertlər etiraf ediblər ki, münasibətlər gələcək illər üçün "tit-tot" prinsipinə əsaslanan zərbə mübadiləsinə çevrilə bilər. "Politico" Brüssel və digər Avropa paytaxtlarının yüksək rütbəli diplomatları və rəsmiləri arasında anonim mənbələrə istinadən yazır ki, Avropa İttifaqı Respublikaçı Donald Tramp prezident seçkilərində qalib gələcəyi təqdirdə ABŞ-la genişmiqyaslı ticarət müharibəsinə hazırlaşır. Adı çəkilməyən Aİ "rəsmiləri" hazırkı vəziyyəti belə təsvir edir: "Biz tez və sərt şəkildə cavab verəcəyik. Birliyə üzv dövlətlər potensial cavab üzərində işləyirlər, prosesə Avropa Komissiyası rəhbərlik edir".

Xatırladaq ki, 2018-ci ildə Trampın prezidentliyi dövründə Aİ ilə ABŞ arasında iqtisadi gərginlik yaşanmışdı. Həmin il Tramp ilk dəfə Aİ-dən polad və alüminium ixracına yeni tariflər tətbiq etdi - bu Avropa İttifaqı tərəfindən təəccüblə qarşılansa da, təmkinlə cavablandırıldı. Sonrakı dövrdə Tramp təzyiqi artırdı və Avropa İttifaqını avtomobil ixracına rüsumlar tətbiq etməklə hədələdi. Məhz bundan sonra Aİ iqtisadi məcburiyyətə cavab vermək mexanizmini formalaşdırdı.



### "12-ci Düzəliş" vəziyyəti düzəldə bilərmi?

Bu arada "Politico" jurnalı maraqlı bir məsələyə toxunub - bildirilir ki, əgər namizədlərin heç biri seçicilərdən lazımi səsi ala bilməsə, Trampın seçilmə ehtimalı daha da böyüyür. Belə ki, eks-prezident Respublikaçıların nəzarətində olan Nümayəndələr Palatasının səsverməsi zamanı "12-ci Düzəliş"i əsas götürərək növbəti illərdə Ağ Evə başçılıq edə bilər. Hətta Harrisin seçiləcəyi təqdirdə belə Tramp özünün şansını qoruyur - əgər, Konqres Harrisə verilən seçici səslərini təsdiqləməsə nəticədə seçkinin taleyinə Nümayəndələr Palatası aydınlıq gətirəcək. Palatada isə çoxluq Respublikaçıların lehinədir.

### Ştatlarda səs faizi Trampın lehinədir...

Ştatlar üzrə səs faizləri isə keçmiş prezidentin xeyrindir. Donald Tramp hazırda 2024-cü il prezident seçkiləri öncəsi ilkin səsvermələrdə bir sıra mühüm ştatlarda liderlik edir. Ayovada Tramp təxminən 51 faiz səslə ön sıradadır. Nyu-Hempşirdə isə seçicilərin 54.3 faizi onu dəstəkləyir. Müvafiq olaraq Nevadada 69.4 faiz, Cənubi Karolinada 59.8 faiz, Miçiqanda 68.1 faiz səs qazanan Tramp bu regionlarda seçkidə liderdir. Keçirilən seçkiqabağı görüşlərdə isə rəqiblər arasında "söz atışması" diqqət çəkib. Harrisdən öncə Şimali Karolinanı "ziyarət edən" Donald Tramp dini liderlərlə görüşdə rəqibini tənqid edərək onu dinə zərər vurmaqda günahlandırıb. Harrisin seçki texnoloqları isə Rust Belt bölgəsindəki tədbirlərə daha çox Respublikaçılar Partiyasının üzvlərini cəlb etməyə çalışıblar. Hər iki namizəd mühüm ştatlarda seçiciləri cəlb etmək üçün aktiv kampaniya aparır.

### Pensilvaniya qalibi müəyyən edəcək...

Ən maraqlı mübarizələrdən biri isə seçkinin taleyini həll edəcək ştatda - Pensilvaniyada baş tutur. Xatırladaq ki, Pensilvaniya ən çox seçici sayına malik olan ştatlardan biridir. Respublikaçı namizəd ştatda həm mitinq keçirib, həm də avtobus turu ilə dolaşıb. Tramp hətta yerli McDonald's restoranlarından birində işləyib - müştərilərə qulluq edib.

Detroit və Atlantadakı görüşlərini sona çatdıran vitse-prezident Harris də Pensilvaniyanı "unutmur". Bunun səbəbi isə məhz seçki mütəxəssisləri tərəfindən bu ştatın "ölüm-dirim" mübarizə adlandırılmasıdır. Qeyd edək ki, məhz Pensilvaniyadakı seçicilərin səsi 2016-cı ildə Trampı, 2020-ci ildə Baydeni qələbəyə daşımışdı. Son iki prezidentlik yarışında 13 milyonluq Pensilvaniyada nəticə yalnız on minlərlə səs fərqi ilə müəyyən edilmişdi. Ştatda böyük şəhərlər və kənd icmaları yerləşir. Beləliklə, Pensilvaniya bir çox cəhətdən bütün ölkənin "mikrokosmosu"dur.

*P.İSMAYILOV*

# Fransa Ukraynaya qoşun göndərəcəkmi?

Uzanan Rusiya-Ukrayna müharibəsinin fəsadları bütün dünya üçün çox ağır ola bilər. Eskalasiyanın Şərqi Avropa məkanından çıxaraq daha geniş areala yayılması və yeni dünya müharibəsinə çevrilməsi, nüvə müharibəsinə keçid kimi təhdidlər getdikcə daha real görünür. Buna görə də beynəlxalq ictimaiyyət, böyük dövlətlər hər şeyi etməlidirlər ki, müharibə mümkün qədər qısa müddətdə sonuclansın.

Lakin bir sıra dövlətlərdən və ayrı-ayrı beynəlxalq təsisatlardan gələn açıqlamalar ona dəlalət edir ki, elə Qərbin özündə müharibəni körükləyən, yanan odun üstünə yağ tökən qüvvələr də az deyil. Bu qəbildən olanlar Rusiya-Ukrayna müharibəsinin bitməsində yox, uzanmasında maraqlıdırlar. Fransanın, E.Makron hakimiyyətinin sərgilədiyi mövqe buna əyani sübutdur. Son olaraq Yelisey Sarayından Kiyevə dəstək məqsədilə "Ukraynaya qoşun yeritməyin vaxtı çatıb" mesajı gəlib.

## Müharibə tərəfinə çevrilən Yelisey Sarayı

Fransanın tarixi qanlı izlərlə çox "zəngindir". Zaman-zaman bu ölkə imperiya maraqlarından çıxış etməklə istilalar həyata keçirib, özünün Afrikadakı və dənizaşırı ərazilərdəki müstəmləkə ölkələrində miqyası çox geniş olan soyqırımları həyata keçirib. Rəsmi Parisin indiyədək hansısa dövlətlərarası konfliktdə barışdırıcı mövqedən çıxış etdiyini xatırlamaq mümkün deyil. Belə görünür ki, Yelisey Sarayı pis ənənəsini həmçinin Rusiya-Ukrayna müharibəsində də davam etdirmək niyyətindədir.

Xatırladaq ki, müharibə hələ təzə başlayanda E.Makron TF1 və France 2 telekanallarına müsahibəsində "Biz Ukraynada müharibənin uzun müddət davam edəcəyinə hazır olmalıyıq" proqnozunu dilə gətirmişdi. Belə görünür ki, Yelisey Sarayının sahibi bu proqnozu təsadüfən səsləndirməyib. "Müharibənin davam etdiyi müddətdə Fransa onun uzanması üçün mümkün olan hər şeyi edib və edir" fikrini qətiyyətlə söyləyə bilərik. Makronun Rusiyaya qarşı sanksiyaların genişləndirilməsi, Ukraynaya dəstək göstərilməsi, bu ölkə ilə NATO arasında əməkdaşlığın üzvlüyə qədər genişləndirilməsi məzmunlu təşəbbüslərini təhlil etdikdə Yelisey Sarayının müharibədə katalizator rolunda çıxış etdiyi qənaəti möhkəmlənir. Fransanın müharibənin əvvəlindən Ukraynaya dəstəyi reanimasiyada olan xəstəyə süni nəfəs verilməsini xatırladır. Qərbin bir sıra dövlətləri kimi, Fransa da Ukraynaya sanki müharibəni udmaq üçün yox, sadəcə müqavimləti davam etdirməsi məqsədilə yardım göstərir. Yelisey Sarayının riyakarlığı Ukraynada hərbi texnika istehsalı müəssisəsinin fəaliyyətində növbəti dəfə təsdiqləndi. Verilən məlumatlaraa görə, bu ilin yayından Fransanın üç müdafiə sənayesi şirkəti pilotsuz uçuş aparatlarının komponentləri və müxtəlif texnikaların, o cümlədən zirehli texnikaların ehtiyat hissələrinin istehsalı sahəsində əməkdaşlığa başlayıb. Birbaşa Fransa Müdafiə Nazirliyinin nəzarətində həyata keçirilən layihənin məqsədi Ukraynaya Rusiya ilə münaqişədə dəstək olmaq kimi açıqlansa da, daha sonra buradan Ermənistan üçün də silah təminatına start verildiyinin üstü açılıb. Qərbdəki diplomatik mənbənin verdiyi məlumata görə, istehsalın tam 30 faizi Ermənistan üçün nəzərdə tutulub. Bax, budur Yelisey Sarayının Ukraynaya "dost" köməyi.

## Makronun Ukraynaya qoşun yeritmək planı

Makronun Ukraynaya dəstək planına bu ölkəyə Fransa hərbiçilərinin göndərilməsi də daxildir. Xatırlayaq ki, Makron bu yaxınlarda Fransanın Ukraynaya 3-cü Piyada Alayının əsgərlərini göndərdiyini deyib. İddiaya görə, fransız hərbçilər 54-cü Mexanikləşdirilmiş Briqadanın şəxsi heyətinə dəstək məqsədilə yola salınıb. İlkin mərhələdə göndərilən əsgərlərin sayı 100 nəfər olsa da, bu sayın 1500 nəfərədək artırılacağı bildirilir. Onların əsasən Donbas cəbhəsinin müdafiəsində iştirak edəcəyi açıqlanmışdı.

İndiki halda isə söhbət Ukraynaya bəlli sayda hərbiçinin deyil, qoşun göndərilməsindən gedir. "Paris Ukraynaya qoşun göndərəcəyini istisna etmir". Bunu son olaraq Fransanın Avropa məsələləri üzrə dövlət katibi Benjamen Haddad "Berliner Zeitung" qəzetinə müsahibəsində deyib.

"Fransa Prezidenti Emmanuel Makron heç nəyi istisna etməməli olduğumuzu söyləyib", - deyə Benjamen Haddad bildirib.

Onun sözlərinə görə, Fransa rəhbərliyinin bu mövqeyi hələ də qüvvədə qalır. Dövlət katibi, həmçinin Fransa qoşunlarını Ukraynada müharibə təlim missiyalarını unutmamağa çağırıb. Siyasətçi belə planların həyata keçirilməsi məsələsinin hələ də NATO müttəfiqləri ilə müzakirə edilməli olduğunu bildirib.

Xatırladaq ki, bir müddət öncə Makron Rusiyanın cəbhə xəttinin yarılacağı və Kiyevdən müvafiq sorğunun alınacağı təqdirdə Ukraynaya qoşun göndərmək imkanını istisna etmədiyini deyib. O, bir çox ölkələrin Parisin yanaşması ilə razı olduğunu da vurğulayıb.



## Qırmızı xəttin keçilməsi

Fransanın Ukraynaya qoşun yeritməsi müharibənin taleyinə müsbət mənada heç bir təsir göstərməyəcək. Qeyd edək ki, Macarıstan, Almaniya, Çexiya, Böyük Britaniya, İtaliya və Yunanıstan Makronun Ukraynaya canlı qüvvə ilə dəstək vermək təklifinə birmənalı mövqe sərgiləməyiblər. Onlar bu təklifə açıq etiraz ediblər. Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto bildirmişdi ki, Ukraynaya qoşun göndərmək Şimali Atlantika Müqaviləsi Təşkilatının qərarını pozacaq: "İki il əvvəl NATO-ya üzv ölkələr qərara gəldilər ki, təşkilat müharibə edən tərəf deyil və qurumla Rusiya arasında münaqişənin qarşısını almaq üçün hər şey edilməlidir. Qoşunların göndərilməsindən danışan Qərb siyasətçiləri NATO-nun bu qərarını pozurlar".

Əslində, Avropa ölkələrinin Makronun səyyi-ciddi davranışlarına qarşı çıxması tamamilə məntiqlidir. Ukraynaya canlı qüvvə ilə dəstək verilməsi Rusiya-NATO münasibətlərində qırmızı xəttin keçilməsi anlamına gəlir. Makronun təşəbbüsünə etiraz edən ölkələr çox yaxşı anlayırlar ki, NATO-ya üzv dövlətlərin Ukraynaya qoşun göndərməsi və cəbhədə Rusiya ordusu ilə qarşıqarşıya durması münaqişənin həllinə yox, əksinə müharibənin coğrafiyasının genişlənməsinə gətirib çıxaracaq. Fransa dövlət başçısının Ukrayna ilə bağlı təşəbbüsü Rusiya və NATO arasında yaşanan eskalasiyanın kulminasiya nöqtəsinə çatmasına xidmət edir. Makronun Moskvaya qarşı açıq-aşkar meydan oxuması görüntüsü isə heç bir məsələni həll etməyəcək. Siyasi imicə sahib olmayan Makronun məntiqsiz siyasəti ucbatından Rusiya - NATO hərbi toqquşmaları baş verərsə, bu, Şərqi Avropada, o cümlədən Baltik və Qara dənizdə daha ciddi eskalasiyalara yol açacaq. Vurğulamaq yerinə düşər ki, NATO rəsmiləri də Rusiya ilə açıq toqquşmaların əleyhinə olduqları barədə bəyanatlar veriblər. Belə olan halda Makronun Qərbin ümumi maraqlarına xələl gətirməsinin məntiqi nədir?

Bu məqamda onu da qeyd edək ki, Makronun və onun nazirlərinin son səslənmələri Fransanın özündə də etirazlarla qarşılanıb. "Fransalı hərbi təlimatçıların Ukraynaya göndərilməsinin müzakirəsi total münaqişənin yeni mərhələyə keçməsindən xəbər verir". Fransanın "Vətənpərvərlər" partiyasının lideri Florian Filippo bu barədə X sosial şəbəkəsində yazıb.

Siyasətçi fransalıların əksəriyyətinin bu yolla eskalasiyanın artmasının əleyhinə olduğunu vurğulayıb. O, həmçinin Ukraynada müharibəni dayandırmağa və sülh əldə edilməsi yollarını axtarmağa çağırıb.

**MÜBARİZ**

# Ukrayna NATO arzularını "basdırır"?

## Kiyev Qərbi təhdid edir

### Alyansa qəbul edilməyəcəyi təqdirdə "nüvə silahı" yaradacağını deyir...

**Qərbin verdiyi vədlərin boşa çıxdığını görən Ukrayna açıq kontekstdə öz tələblərini irəli sürməkdədir. Xüsusilə, Almaniyanın "sülh çağırışları" səsləndirməsi, ABŞ-da isə Respublikaçıların prezidentliyə namizədi Donald Trampın seçkilərdə qalib gələcəyi təqdirdə müharibəni dayandıracağı ilə bağlı fikirlər irəli sürməsi rəsmi Kiyevi düşündürməkdədir. Bu səbəbdən də, Zelenski hakimiyyəti bir tərəfdən Qərbin rəsmi müttəfiqi olmaq uğrunda mübarizə aparırkən, digər tərəfdən də "nüvə silahı" yaradacağı ilə bağlı məlumatlar yayır. Amma hələ ki, birinci yol daha "məqbul" hesab olunur. Ukrayna prezidentinin Brüsseldə keçirdiyi son mətbuat konfransında yenidən "Budapeşt Memorandumu"na müraciət etməsi bu faktı təsdiqləyir. Xatırladaq ki, 5 dekabr 1994-cü ildə Macarıstanın paytaxtı Budapeştdə keçirilən ATƏT-in konfransında Belarus, Qazaxıstan və Ukraynanın Nüvə silahının yayılmaması müqaviləsinə qoşulması ilə bağlı təhlükəsizlik təminatlarını təsdiqləyən sənədə imza atılmışdı. Memorandum üç nüvə dövləti - Rusiya, ABŞ və Böyük Britaniya tərəfindən imzalanmışdı. Zelenski də Brüsseldə bildirib ki, Budapeşt Memorandumu, çərçivəsində Ukrayna Rusiyaya SSRİ-dən miras qalmış nüvə silahını verməyə razılıq vermişdi, əvəzində isə Rusiya, ABŞ və Böyük Britaniya tərəfindən təhlükəsizlik təminatları almışdı. Ancaq bu, işə yaramadı. Buna görə də, Kiyev yalnız iki məqbul variant görür. Ukrayna prezidenti həm də vurğulayıb ki, Kiyev NATO-nu seçir.**

## Rutte "bilmir"...

Kiyev NATO-nu seçirsə, qarşılığında NATO da Kiyevi seçirmi? Məsələnin məğzi məhz bu məqamda qəlizləşir. Məsələn, bu ilin ilk rübünün sonunda bu məsələ yenidən gündəmə gəldiyi zaman ABŞ-ın məsələyə münasibəti birmənalı olmuşdu. Vaşinqtonun NATO-dakı daimi nümayəndəsi Culian Smit bildirmişdi ki, NATO Ukraynanı "vaxtı gələndə" yalnız bütün müttəfiqlərin razılığı ilə və hərbi əməliyyatlar başa çatdıqdan sonra öz sıralarına qəbul edəcək. Məsələ ilə bağlı bu il Vaşinqtonda keçirilən NATO-nun Zirvə toplantısında müzakirələr gözlənilsə də, effektiv nəticə əldə olunmadı. Kiyev yenə də alyans ölkələrinin "vədləri" ilə kifayətlənməli oldu. Bunun qarşılığında il ərzində İsveç və Finlandiya quruma tamhüquqlu üzv kimi qəbul olundu. Alyansın yeni baş katibi Mark Rutte isə Ukraynanın alyansa üzv olacağını deyir - zamanla bağlı dəqiq "məlumat vermir". Rutte bildirir ki, bunun nə vaxt baş verəcəyini hələlik dəqiq söyləmək çətindir.

## ABŞ-ın maraqlarına ziddir...

Bəs Ukrayna niyə Alyansın sərhədləri daxilinə "yaxın buraxılmır". Bir müddət öncə, ABŞ-ın məşhur "Foreign Affairs" dərgisinin məsələ ilə bağlı yayımladığı məqalədə bildirilir ki, NATO-ya üzvlük müttəfiqlərin bir-birləri üçün döyüşmək və ölmək öhdəliyini əhatə edir. Qismən buna görə də onun üzvləri "soyuq müharibə"dən sonrakı dövrdə ittifaqı hücuma məruzqalma riski ilə üzləşmiş dövlətlər hesabına genişləndirməmək üçün çalışdılar. NATO liderləri də çoxdan başa düşürlər ki, Ukraynanı qəbul etmək Rusiya ilə çox real müharibə (o cümlədən nüvə müharibəsi) ehtimalını ehtiva edir. Belə bir münaqişənin baş vermə şansı və onun dağıdıcı nəticələri ABŞ və digər NATO üzvlərinin Ukraynadakı müharibəyə daha dərindən cəlb olunmamağa çalışmasının əsas səbəbidir. Gərginlik aydındır: deməli olar ki, heç kim NATO-nun bu gün Ukrayna üçün birbaşa Rusiya ilə döyüşməli olduğunu düşünmür, lakin bir çoxları Ukraynanın alyansa daxil olmasına gedən yol vəd etməyi və gələcəkdə onun uğrunda mübarizə aparmağı öhdəsinə götürür. Dərginin vurğuladığı məsələ Şimali Atlantika Alyansının Nizamnaməsinin 5-ci maddəsidir - bu maddəyə görə, təşkilata üzv ölkələr silahlı hücuma məruz qalan hər hansı üzv ölkəyə mütləq şəkildə kömək etməlidir. Bu maddə NATO tarixində ilk və hələ ki, son dəfə 2001-ci ildəki 11 sentyabr hücumlarından sonra tətbiq olunub. Məqalədə Ukraynanın Alyans üzvlüyünə qəbul edilməsinin açıq şəkildə ABŞ-ın xarici siyasətinə və maraqlarına uyğun olmadığı göstərilib.



## Moskvanın mövqeyi qətidir...

Bu təklif qlobal səviyyədə Ukrayna - Rusiya qarşıdurmasının miqyasının böyüdülməsi, NATO-nun aktiv şəkildə bu münaqişəyə cəlb edilməsi deməkdir. Eyni zamanda, belə bir hal yaşanacağı təqdirdə Rusiyanın 2022-ci ildən bəri elan etdiyi "qırmızı xətti" tapdanacaq - Moskva bəyan edib ki, NATO onun postsovet sərhəddində özünün "qalasını" qura bilməz. Əvvəlcə "centlemen sazişi" ilə razılaşdırılan bu məsələ sonradan Kreml tərəfindən açıq kontekstdə bəyan olunmuşdu. Moskva bu gün də eyni fikirdə qalır - Rusiya Federasiyasının BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya bildirib ki, Ukraynanın NATO-ya üzvlüyü Rusiya Federasiyası üçün qətiyyən qəbuledilməzdir və hər hansı sülh sazişinin bir hissəsi ola bilməz. "Mən dəfələrlə təsdiq etmək istəyirəm ki, Ukraynanın NATO-ya hər hansı formada üzvlüyü Rusiya üçün tamamilə qəbuledilməzdir və heç bir sülh planlarının və ya vasitəçilik təşəbbüslərinin bir hissəsi ola bilməz", - diplomat qeyd edib.

## Qərb fikrini dəyişib...

Görünən budur ki, Ukraynanın quruma mümkün üzv edilməsi prosesi yenidən təxirə düşür. Vaşinqton Zirvəsindən sonra ümidlənən Kiyev artıq vəziyyəti soyuq başla təhlil etməli olduğunu görür. NATO Rusiyaya qarşı qəti və kollektiv mübarizə təşkil etmək fikrindən uzaqdır. Artıq Qərbin aparıcı gücləri olan bəzi dövlətlər belə Rusiyaya münasibətdə aqressiyani deyil, mümkün kompromisi daha effektiv alternativ kimi qəbul edir. Bu dövlətlər Avropa coğrafiyasını fərqli maraqların savaş poliqonu kimi görmək istəmirlər.

**S.İSMAYILZADƏ**



# ABŞ Dövlət katibinin İsrailə növbəti səfəri başlayıb

ABŞ-ın Dövlət katibi Antoni Blinken İsrailə növbəti dəfə səfər edib. Bu, 2023-cü il oktyabrın 7-də bölgədə vəziyyətin gərginləşməsindən sonra onun Yaxın Şərqə 11-ci səfəridir.

AZƏRTAC xəbər verir ki, "Ynet" portalının yaydığı məlumata görə, Blinkenin İsraildə Baş nazir Benyamin Netanyahu və Prezident İsxak Hersoqla görüşləri nəzərdə tutulub.

Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bu ərəfədə bildirib ki, Blinkenin Yaxın Şərq turu oktyabrın 21-dən 25-dək davam edəcək. Dövlət katibi səfər sanı Qəzza zolağında müharibənin dayandırılmasının, bütün girovların azad edilməsinin və Fələstin xalqının əzabının yüngülləşdirilməsinin vacibliyini, həmçinin İsrail ilə "Hizbullah" arasında münaqişənin diplomatik həllinin zəruriliyini müzakirə etmək niyyətindədir.

# Bidzina İvanişvili: Biz seçkilərdə qalib gələcəyik



"Biz seçkilərdə qalib gələcəyik və ölkədə sabitlik bərqərar olunacaq. Gürcüstan xalqı oktyabrın 27-dən etibarən öz evlərində sakit yatacaqlar".

AZƏRTAC xəbər verir ki, bu sözləri hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili "İmedi" televiziya kanalına müsahibəsində söyləyib.

O deyib: "Mən hadisələri qabaqlayıb sizə deyirəm ki, seçki günü fövqəladə heç nə baş verməyəcək, seçkilərdən sonrakı ikinci gün çox sakit keçəcək. Lakin burada vurğulamaq istəyirəm ki, hər növbəti günü şərti olaraq "ikinci gün" adlandırmaq olar. Ona görə də biz ehtiyatlı olmalıyıq. Çünki qarşıdakı vaxtlarda çox gərgin geosiyasi vəziyyət yaranacaq. Buna görə çox diqqətli olmalıyıq", - deyə B.İvanişvili vurğulayıb.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# Musiqi yetər ki...

Yeni araşdırmalar göstərir ki, müəyyən mahnılar, zərif melodiyalar və dinamik ritmlər insanların əməliyyatdan daha rahat sağalmasına və daha az ağrıkəsici istifadəsinə kömək edə bilər. Musiqi dinləmək əməliyyatdan oyanan xəstələrin narahatlığını, ağrısını və ürək döyüntülərini azaldır. Nəticədə musiqi dinləyən cərrahi xəstələr çox az miqdarda dərman tələb edirlər.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, Kaliforniya Şimali Dövlət Universiteti Tibb Kollecinin cərrahiyyə professoru, aparıcı tədqiqatçı dr. Eldo Frezza bununla bağlı məlumatlarını paylaşıb. O bildirib ki, xəstələr əməliyyatdan sonra oyandıqda bəzən çox qorxur və harada olduqlarını bilmirlər: “Musiqi oyanma mərhələsindən normal vəziyyətə keçidi asanlaşdıra bilər və stressi azaltmağa qadirdir”.

Tədqiqatçılar musiqinin cərrahiyyə əməliyyatından sağalma prosesindəki rolunu araşdıran 35 əvvəlki tədqiqatın məlumatlarını təhlil ediblər. Musiqi dinləyən xəstələrdə əməliyyatdan bir gün sonra ağrı və narahatlıqda müəyyən dərəcədə azalma qeydə alınıb.

Tədqiqatın baş müəllifi, Kaliforniya Şimali Dövlət Universiteti Tibb Kollecinin üçüncü kurs tələbəsi Şehzaib Reis musiqinin narahatlığı aradan qaldıran ən yaxşı vasitə olduğunu diqqətə çatdırıb: “Tədqiqatlar göstərdi ki, xəstələr musiqi dinlədikdə daha az ağrı hiss etdiklərini düşünürlər və biz də bunun əhəmiyyətli olduğunu hesab edirik. Musiqi dinlədikdə, xəstə ağrını unudaraq rahatlaşa bilir. Bu şəkildə çox şey etməyə və ya diqqəti bir şeyə yönəltməyə ehtiyac yoxdur və sadəcə musiqi yetər ki, xəstə özünü sakitləşdirə bilsin”.

Araşdırma nəticəsində musiqi dinləyən xəstələrdə ürək döyüntüsü də aşağı olub ki, bu da bədənin oksigen və qida maddələrinin effektiv dövranını təmin edərək sağalma prosesini yaxşılaşdıra bilər. Bu nəticələr Amerika Cərrahlar Kollecinin illik toplantısında təqdim olunub. Bu kimi tədqiqatlar elmi jurnalda dərc olunana qədər ilkin nəticələr hesab edilməlidir.

Tədqiqatçılar musiqi dinləməyin stress hormonu olan kortizol səviyyəsinin azalmasına səbəb olduğunu düşünürlər. Onlar əlavə ediblər ki, xəstə üçün ən yaxşı musiqi onun ən çox zövq aldığı musiqi olmalıdır.

# İstilik təchizatı ilə bağlı hazırlıqlar...



## Qazanxanalar noyabrın 15-dən tez işə salına bilər?

Artıq bir neçə gündür ki, havalar soyuyub. Xüsusilə yağışlı və küləkli günlər davam etməkdədir. Belə olan halda mənzillərdə istiliyə olan tələbat da artmağa başlayıb. Bakıda istilik təchizatı ilə bağlı hazırlıqlar necə gedir? Ümumiyyətlə bu il üçün hansı yeniliklər nəzərdə tutulur və istilik sistemlərinin tez verilməsi mümkündürmü?

Mövzu ilə bağlı “Azəristiliktəchizat” ASC-nin Mətbuat katibi Elvin Basqallı “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, “Azəristiliktəchizat” ASC-nin balansında 564 qazanxana var. O, qeyd edib ki, 3871 yaşayış binası və 184 mindən çox mənzil, 449 təhsil müəssisəsi, 152 səhiyyə müəssisəsi, 2200-dən çox təsərrüfat və sosial obyektlər “Azəristiliktəchizat” ASC tərəfindən mərkəzləşdirilmiş qaydada istiliklə təmin edilir: “Hər il payız-qış mövsünə hazırlıq, mövsüm yekunlaşdıqda isə növbəti mövsümə qədər olan dövrü əhatə edir. Bu dövr ərzində isə qazanxanalara baxış keçirilir, avadanlıqlar yoxlanılır. Magistral və məhəllədaxili xətlər hidrovlik təzyiqlə yoxlanılır. Lazımi yerlərdə əsaslı təmir işləri aparılır və yenilənmələr həyata keçirilir”.

**İstilik təchizatında yeniliklər olacaq...**

E.Basqallı həmçinin onu da vurğulayıb ki, bu il üçün əsas fərq və yenilik paytaxtın 4 rayonunda ümumilikdə 5 qazanxana yenidən qurulur: “Paytaxtın Səbail, Nərimanov və Nizami rayonlarında 4 qazanxana yerində isə müasir tipli qazanxanalar inşa olunmaqdadır. Eyni zamanda Səbail rayonunda bir qazanxana da zirzəmidən çıxarılaraq yeni layihə əsasında hazırlanır. Həmin qazanxanaların ətrafındakı məhəllədaxili xətlər də dəyişdirilir. İstiliklə təmin olunan binaların aşağı altpaylayıcı xətləri də dəyişdirilir. Bu da daha keyfiyyətli istilik xidmətinə imkan verəcək”.

**İstilik bu halda tez verilə bilər**

“Azəristiliktəchizat” sözçüsü istilik sistemlərinin noyabrın 15-dən öncə işə salınması ilə bağlı məsələyə də aydınlıq gətirib: “2023-cu il 5 sentyabr tarixində Nazirlər Kabineti (NK) istilik enerjisindən istifadə qaydalarını təsdiqləyib. Bu qaydalara əsasən, istilik sistemlərinin verilməsi hər il noyabrın 15-dən başlayır və növbəti il aprelin 15-də yekunlaşır. Lakin 14 dağlıq və dağətəyi rayonlarımızda istilik sistemlərinin verilməsi noyabrın 1-i başlayır və növbəti il mayın 1-də yekunlaşır. Əgər vaxtından əvvəl havanın temperaturu 5 gün ardıcıl şəkildə 8 dərəcədən aşağı olarsa, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin də proqnozuna görə, temperatur növbəti günlərdə də aşağı düşərsə, bu halda qazanxanaların vaxtından əvvəl işə salınmasına baxıla bilər”.

*Yeganə BAYRAMOVA*

# Aylıq normanın 3,5 misli qədər...

## İndiyədək Bakıda və Abşeron yarımadasında intensivliyinə görə bu günlərdəki kimi güclü yağış müşahidə olunmayıb

Məlum olduğu kimi, oktyabrın 21-də səhər saatlarından başlayaraq Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağıb. Yarımadanın bəzi yerlərində yağıntılar intensiv olub.

AZƏRTAC xəbər verir ki, oktyabrın 21-i gündüzdən 22-si səhərədək düşən yağıntının miqdarı Binədə 86 millimetr (aylıq normanın 306 faizi), Maştağada 60 millimetr (aylıq normanın 150 faizi), Pirallahıda 47 millimetr (aylıq normanın 197 faizi), Çilov adasında 37 millimetr (aylıq normanın 159 faizi), Bakıda 32 millimetr (aylıq normanın 114 faizi), Sumqayıtda isə 14 millimetr (aylıq normanın 52 faizini) təşkil edib.



Bu günlərdə müşahidə olunan yağıntının miqdarı aylıq normanın 3,5 misli qədər olub ki, bu da Bakıda və Abşeron yarımadasında indiyədək misli görünməyən intensivlik deməkdir.

Xatırladaq ki, bundan əvvəl intensivliyinə görə ən güclü yağışlar 2019-cu il sentyabrın 3-də qeydə alınıb. Belə ki, həmin gün Sumqayıtda 27 millimetr (aylıq normanın 100 faizi), Bakıda 18 millimetr (aylıq normanın 64 faizi), Maştağada 12 millimetr (aylıq normanın 30 faizi) yağıntı düşüb.

Qeyd edək ki, intensiv yağıntılarla əlaqədar Bakı şəhəri və Abşeron rayonu ərazisində su basmış ərazilərdə yaranan problemlərin aradan qaldırılması üçün aidiyyəti qurumlar gücləndirilmiş iş rejimində fasiləsiz fəaliyyət göstərir və birgə tədbirlər həyata keçirir.




# Məşhurlar Azercell-in tədbirində ədəbiyyatdan danışacaqlar

Lider mobil operator “Kitab Klubu” layihəsi ilə mütaliəyə həvəs yaratmağa davam edir

Azercell “Kitab Klubu” layihəsi çərçivəsində Azərbaycanın ədəbi irsinin təşviqinə töhfə verməyə davam edir. Şirkət bu təşəbbüs çərçivəsində oktyabr ayının 25-də xüsusi tədbir keçirəcək. Tədbirin qonaqları yazıçı Ceyhun Hidayətli, qiraətçi Xəzər Süleymanlı və ssenarist Azər Aydəmir olacaqlar.

Qonaqlar müasir Azərbaycan ədəbiyyatı, son zamanlar geniş auditoriyanın diqqətini çəkməyə müvəffəq olan “Əqrəb” romanı və kitab əsasında ərsəyə gələn Azərbaycan serialı “Əqrəb mövsümü” haqqında danışacaqlar.

Tədbirdə tanınmış simalarla yanaşı, Azercell-in “Kitab Klubu”nun üzvləri də iştirak edərək “Bookmate” və “Litres” platformalarında yerləşdirilmiş əsərlərdən parçalar səsləndirəcəklər.

“Kitab Klubu”nun qonağı olmaq və “Homy Brasserie” kafesində keçiriləcək ədəbiyyat axşamında iştirak etmək üçün qeydiyyatdan keçməyiniz xahiş olunur: https://forms.office.com/r/4BerPc1me6

## *İdman*

# Avropa Liqası: “Qarabağ” - “Ayaks” oyununun hakimləri açıqlanıb

UEFA Avropa Liqasının əsas mərhələsində Bakıda “Qarabağ”la Niderlandın “Ayaks” komandası arasında keçiriləcək III tur oyununa təyinatlar açıqlanıb.

AZƏRTAC xəbər verir ki, qarşılaşmanı Şotlandiyadan olan hakimlər briqadası idarə edəcək.

Matçın baş hakimi Nikolas Uolş olacaq. Ona yan xətt hakimləri Qrem Stüart və Kalum Spens kömək edəcəklər. Dördüncü hakim funksiyasını Kristofer Qraham yerinə yetirəcək.

VAR hakimi Kevin Klansi, onun köməkçisi isə Con Biton olacaq.

“Report” xəbər verir ki, 34 yaşlı ədalət təmsilçisi 2019-cu ildə Avropa Liqasının II təsnifat mərhələsində “Qəbələ”nin evdə Gürcüstanın “Dinamo” kollektivinə 0:2 hesabı ilə uduzduğu qarşılaşmada iş başında olub.



Şotlandiyalı FIFA referisi 2023-cü ildə isə “Qarabağ”ın Belçikada “Gent”ə penaltilər seriyasında 3:5 hesabı ilə məğlub olduğu (əsas vaxt 0:1) UEFA Konfrans Liqasının pley-off qarşılaşmasında dördüncü hakim funksiyasını yerinə yetirib.

O, Ağdam təmsilçisinin 2023/2024 mövsümündə Avropa Liqasının qrup mərhələsində Bakıda Norveçin “Molde” klubuna qalib gəldiyi (1:0) görüşdə isə VAR hakimi olub.

Qeyd edək ki, oktyabrın 24-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək oyun Bakı vaxtı ilə saat 20:45-də başlayacaq.

# Azərbaycan klubu şahmat üzrə Avropa Kubokunda növbəti qələbəsini qazanıb

ECCC
39th European CHESS CLUB CUP
28th European CHESS CLUB CUP FOR WOMEN

Azərbaycanın “Vüqar Həşimov” klubu Serbiyanın Vranyatske-Bane şəhərində davam edən şahmat üzrə Avropa Kubokunda növbəti qələbəsini qazanıb.

“Report” xəbər verir ki, təmsilçimiz ikinci turda İsveçin “Lunds” kollektivindən güclü olub - 3,5:2,5.

Azərbaycan komandası ötən gün Norveçin SOSS klubuna 5,5:0,5 hesabı ilə qalib gəlmişdi.

Qeyd edək ki, ümumilikdə 84 klubun yarışdığı Avropa Kubokunda 7 tur oynanılacaq. Azərbaycan şahmatçılarından Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Nicat Abasov Türkiyənin “Bayegan Pendik Chess”, Günay Məmmədzadə və Gövhər Beydullayeva Serbiyanın “Sirmium Sremska Mitrovitsa”, Ülviyyə Fətəliyeva isə Rumıniyanın “Super Chess” klublarında çıxış edirlər.

# AFFA rəsmisi UEFA-dan təyinat alıb



AFFA-nın Uşaq və gənclər üzrə yarışların təşkili şöbəsinin baş mütəxəssisi Zümrüd Ağayeva UEFA-dan növbəti təyinatını alıb.

Milli assosiasiyadan AZƏRTAC-a verilən məlumata görə, o, qadın futbolçular arasında Avropa çempionatının pley-off mərhələsi çərçivəsində keçiriləcək Gürcüstan-İrlandiya oyununun UEFA nümayəndəsi olacaq.

Oktyabrın 25-də Gürcüstanın paytaxtı Tbilisidə yerləşən “Mixail Mesxi 2” stadionunda təşkil olunacaq görüş Bakı vaxtı ilə saat 20:00-da başlayacaq.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4832
Sifariş: 2450
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli